**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RÖVŞƏN RAQİF OĞLU MƏMMƏDOV**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AVROPADA AZƏRBAYCAN DİASPOR MƏTBUATI VƏ MİLLİ İDEOLOGİYA MƏSƏLƏLƏRİ (ALMANİYA, FRANSA, TÜRKİYƏ, İNGİLTƏRƏ)

**5720.01 – Jurnalistika**

**Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya Bakı Slavyan Universitetinin "Azərbaycan ədəbiyyatı və jurnalistikası" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi məsləhətçi:** **Rəhilə Məmməd qızı Qeybullayeva**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Cahangir Əbdüləli oğlu Məmmədli**
filologiya üzrə elmlər doktoru, professor

**Kamran İmran oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** **Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsi**

Müdafiə «_23___» __09_________ 2016-cı il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Müasir dövr Azərbaycan diaspor mətbuatı ideoloji fəaliyyət strategiyası, yayım coğrafiyası, milli-mənəvi dəyərlərin təbliği və informasiya məkanında nümayiş etdirdiyi aktivliyi, baş verən hadisələrə operativ reaksiyası ilə diqqəti cəlb edir. Xaricdə ictimai-siyasi və mədəni sferalarda çalışan, azərbaycançılığın təbliği, tarixi həqiqətlərin obyektiv olaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, bununla da müstəqil Azərbaycan Respublikasının müsbət imicinin formalaşması istiqamətində əməli fəaliyyəti ilə seçilən soydaşlarımız həmin dərgilərdən səmərəli istifadə etməklə konkret nəticələr ortaya qoyur. Təsadüfi deyil ki, bu gün əcnəbi ölkələrdə, xüsusən də Avropada cəmiyyət və ictimai birliklər yaratmağa çalışan Azərbaycan diasporu mövcud çətinliklərə baxmayaraq, qəzet və jurnalların sayının da artırılması istiqamətində əməli işlər görür və bir çox halda buna nail də olur.

Dünya azərbaycanlıları arasında milli-mənəvi dəyərləri, mədəniyyətimizi, adət-ənənələri təbliğ etməklə sayı milyonlarla ölçülən soydaşlarımızı aktiv ideoloji fəaliyyətə səsləyən diaspor mətbuatımız xüsusən internet resurslarından maksimum yararlanmaqla yayım coğrafiyasını bir qədər də genişləndirməyi, təsir dairəsini artırmağı düşünür. Əlbəttə, bu istiqamətdə problemlər, həlli vacib məsələlər də az deyil. Lakin qeyd etdiyimiz kimi, istər dövlət, istər qeyri hökumət təşkilatları, istərsə də sayı milyonlarla ölçülən Azərbaycan diasporunn həmin problemlərin aradan qaldırılması məqsədilə atdığı addımlar gələcəyə nikbinliklə baxmağa əsas verir.

Qeyd olunan sahəyə ayrılan diqqət və qayğının təməlini isə ümummilli lider Heydər Əliyev qoydu. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, beynəlxalq əlaqələrin yüksək səviyyədə qurulmasında diasporun əhəmiyyətini xüsusi qeyd edən dahi öndərin ABŞ, Almaniya, Fransa, Türkiyə, Böyük Britaniya, Rusiya, Çin və digər ölkələrə işgüzar səfərlərində ordakı həmvətənlərimizlə görüşlərdə səsləndirdiyi fikirlər həm ölkə vətəndaşları, həm də Azərbaycan diasporu üçün səmərəli fəaliyyət proqramı kimi bu gün də xüsusi önəm kəsb edir. Bu baxımdan, milli birliyin ilk növbədə mənəviyyat, məfkurə birliyi olduğunu təsbit edən H.Əliyevin 1996-cı ilin iyulunda Almaniyaya səfəri zamanı Bonn şəhərindəki soydaşlarımızla görüşdə dediyi sözlər bu gün öz aktuallığını saxlayır: "...mən demirəm ki, azərbaycanlıların hamısı bir yerə yığışsın, bu heç lazım da deyil. Ancaq hamımızın qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında düşüncələri bir olsa, əlbəttə, respublikamız müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə

keçə bilər... Mən Azərbaycan Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən şəxs kimi deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir"[1].

Həmin illər ərzində diasporun formalaşması və inkişafı istiqamətində atılan addımlar bu gün də öz bəhrəsini verməkdədir. Milli liderin müəyyən etdiyi ideoloji fəaliyyət strategiyasına, azərbaycançılıq ideologiyasına sadiq qalan soydaşlarımız yalnız mətbu orqanlar dərc etməklə kifayətlənmir, radio və televiziya vasitələrinin yaradılmasına nail olur, internet resurslarından maksimum yararlanmağa çalışır və bununla da, təbliğatçılıq işini daha geniş və məhsuldar şəkildə həyata keçirmək istiqamətində konkret, düşünülmüş addımlar atır.

Qeyd olunanlar isə Azərbaycan diasporunun təbliğat sahəsində kifayət qədər böyük gücə malik olduğunu söyləməyə əsas verir. Həm diaspor mətbuatı, həm ölkədə dərc olunmaqla dünyaya yayımlanan dərgilərdən, xüsusən də virtual aləmin imkanlarından məqsədyönlü şəkildə istifadə etməklə konkret nəticələr əldə etmək mümkündür. Odur ki, bu gücdən maksimum yararlanmaqla diasporçuluq istiqamətində önəmli addımlar atmaq, ən əsası isə bu gün diasporumuzu düşündürən problemlərdən sayılan milli birliyin və ideologiyanın zəifliyi, pərakəndəlik, ümumi məqsəd naminə bir araya gələ bilməmək, vahid fəaliyyət proqramının zəifliyi kimi çatışmazlıqları aradan qaldırmaq olar.

**Mövzunun aktuallığı.** Uzun tarixi proseslərin, siyasi çəkişmələrin və beynəlxalq münasibətlər sistemində tətbiq edilən düşünülmüş siyasət, məqsədyönlü strateji fəaliyyət proqramının məntiqi yekunu olaraq müstəqilliyə qovuşmuş hər bir dövlətin qarşısında duran əsas məqsəd bu müstəqilliyi qorumaq və milli ideoloji dəyərləri yaşatmaqdır. Bu da təsadüfi deyil. Belə ki, milli ideologiya və özünüdərk olmadan, mənəvi dəyərlərə, ümummilli prinsiplərə önəm vermədən müstəqilliyi qorumaq çətin, bir çox halda mümkünsüzdür. Qeyd olunan keyfiyyətlərin formalaşması və vətəndaş cəmiyyətində layiq olduğu yeri tutması üçün isə təbliğatçılıq işinin yüksək səviyyədə qurulması tələb olunur. Müasir dövr dövlətlərin təbliğat siyasətində, milli-mənəvi dəyərlərin formalaşması istiqamətində yararlandığı əsas amillərdən biri də diasporadır. Məhz buna görə, ərazisindən, dilindən və dinindən asılı olmayaraq, hər bir ölkə müstəqilliyin ilk illərində olduğu kimi, sonadək bu amala sadiq qalır, milli mənsubiyyətini, ideologiyasını, adət-ənənələrini beynəlxalq səviyyədə

[1] Azərbaycan diasporuna dövlət qayğısı. II nəşr, Bakı: Çaşıoğlu, 2006, s. 5.

təbliğ etməyə, yaşatmağa çalışır. Diasporaya xüsusi önəm verən, xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, ideoloji savaşda öz sözünü deməsi istiqamətində fəaliyyət göstərən Azərbaycan Respublikası da qarşıya qoyulan məqsədi istər dövlət, istərsə də qeyri hökumət təşkilatları səviyyəsində həyata keçirir. Görülən işlərin məntiqi yekunu olaraq, bu gün dünyanın demək olar ki, hər bir ölkəsində soydaşlarımız yaşayır və təşkilatlanır. Azərbaycan diasporunun yaratdığı cəmiyyət və ictimai birliklər, qəzet və jurnallar, televiziya və radio vasitələri təbliğatçılıq işində sözün əsil mənasında təsiredici mexanizm, ideoloji silah rolunu oynayır.

Diaspor sahəsində görülən işlər yetərincədir. Bu istiqamətdə elmi təhlillər aparmaq, mövcud problemləri araşdırmaq isə olduqca önəmli və aktualdır. İlk növbədə ona görə ki, diaspor sahəsinə yalnız praktik deyil, elmi yanaşmaqla yeni fəaliyyət metodlarını, inkişafı şərtləndirən önəmli prinsipləri ortaya qoymaq və ümumi işə fayda vermək mümkündür. İkincisi, diaspor problemlərinin düşünülmüş şəkildə həlli məhz aparılan təhlil və araşdırmalardan keçir. Üçüncüsü, diasporu, xüsusən də diaspor mətbuatının mövcud durumunu, mövzu və yaradıcılıq potensialını araşdırmaqla həmin dərgilərdən daha səmərəli istifadə yollarını öyrənmiş oluruq. Ən nəhayət, dördüncü amil tanıtma, maarifləndirmə ilə bağlıdır. Belə ki, müasir dövrdə Azərbaycan Respublikasında yaşayan soydaşlarımızın xaricdəki həmvətənlərimizin yaradıcılığı, ictimai–siyasi proseslərdə aktiv iştirakı ilə bağlı yetərincə məlumatlı olması istər ideoloji işin inkişafı, istərsə də soydaşlarımız arasında əlaqələrin və qarşılıqlı iş birliyinin qurulması baxımından önəmli və aktualdır. Qeyd olunanları nəzərə alaraq, Avropada Azərbaycan diaspor mətbuatının və milli ideologiya məsələlərinin araşdırılmasını aktual hesab edir, mövzunun gələcəkdə də yeni elmi təhlillər və müasir yanaşma metodları ilə tədqiqinin vacib olduğunu düşünürük.

**Mövzunun işlənmə dərəcəsi**. Müstəqillik dövründə Avropada Azərbaycan diasporunun mətbu fəaliyyəti və milli ideologiya məsələləri bu tədqiqata qədər ayrıca, müstəqil mövzu kimi öyrənilməmişdir. Lakin ümumilikdə götürdükdə, istər mühacirət tarixi, istərsə də Azərbaycan diasporu daim tədqiqatçıların maraq dairəsində olub. Bu mövzu müxtəlif illərdə prof. R. Qeybullayeva[1], prof. V. Arzumanlı[2], prof. V. Sultanlı[3], prof.

---

[1] Qeybullayeva R. From Convergence Culture to… Convergence Culture. – KCTOS: Wissen, Kreativität und Transformationen von Gesellschaften conference, Vienna University, Austria, (December 2007).

[2] Arzumanlı V. Azərbaycan diasporu (reallıqlar, qayğılar, problemlər), Bakı: Qartal, 2001.

[3] Sultanlı V. Azərbaycan mühacirət ədəbiyyatı: Dərs vəsaiti. Bakı: Şirvannəşr, 1998.

Alxan Bayramoğlu[4], filologiya elmləri doktoru A. Tahirli[5], fəlsəfə doktoru Z.Əliyev[6] və digər alimlər tərəfindən araşdırılmış, bir sıra maraqlı fikirlər, elmi yanaşmalar ortaya qoyulmuşdur. Əsərlərinə istinad etdiyimiz həmin müəlliflər, eləcə də digər tədqiqatçılar bu işi zaman-zaman davam etdirmiş, diasporumuzun tarixi və müasir dövr fəaliyyəti barədə elmi araşdırmalar aparmışlar. Dissertasiyada daha çox mühacirət tarixinin və mühacirət mətbu orqanlarının araşdırılmasında da məhz həmin mənbələrdən istifadə olunub. Azərbaycan diasporunun kifayət qədər zəngin tarixə malik olduğunu bildirən tədqiqatçılar soydaşlarımızın həmçinin müasir dövrdə aktiv fəaliyyəti ilə seçildiyini xüsusi olaraq vurğulamış və irəli sürdükləri elmi dəlillər, ortaya qoyulan elmi araşdırmalarla gələcəkdə bu mövzunun yenidən, müxtəlif aspektlərdən tədqiq olunmasına bilavasitə təkan vermişlər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Avropada yaşayan soydaşlarımızın dərc etdirdiyi mətbu orqanları araşdırmaq, onların problemlərini elmi müstəviyə qaldırmaqla həmin problemlərdən çıxış yollarını ortaya qoymaqdır. Dissertasiya həm də informativ yükü ilə diqqəti cəlb edir. Belə ki, qarşıya qoyulan əsas məqsədlərdən biri də yalnız Avropada deyil, dünyanın digər qitələrində çap olunan dərgilərimizlə bağlı yetərincə informasiya toplamaq və Azərbaycan diaspor mətbuatının ümumi mənzərəsini yaratmaqdır.

Dissertasiyanın məqsəd və vəzifələrindən biri də ideoloji amillə bağlıdır. Belə ki, mətbuat və ideologiya anlayışları bir–biri ilə sıx əlaqədə olduğundan onları eyni aspektən araşdırmaq və bununla da mətbu orqanlarımızın ideoloji işdə önəmli rolunu təhlil etmək əsas hədəflərdən sayılır.

Dissertasiya işinin qarşısında duran əsas məqsədlərdən biri də Avropada Azərbaycan diaspor mətbuatının ümumi mənzərəsini yaratmaqla soydaşlarımızın informasiya müharibəsində potensial təsir gücünün təhlil edilməsi, xaricdə nəşr olunan qəzet və jurnallarımızın zəruri məlumatlarla təmin olunması, dərgilərimizin ideoloji mübarizədə aktiv ictimai-siyasi fəaliyyətə cəlb edilməsi istiqamətində strateji fəaliyyət proqramının hazırlanmasına elmi və praktik baxımdan nail olmaqdır.

---

[4] Bayramoğlu A. Azərbaycan mühacirət mətbuatına dair mühazirələr (1920-1990-cı illər): Dərs vəsaiti. Bakı Dövlət Universiteti, 2004.

[5] Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı: CBS, Polygraphic production, 2005.

[6] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu, Bakı: Nurlan, 2001.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiyada tarixi-müqayisəli metoddan istifadə edilmiş, tədqiqatın obyekti kimi seçilən nümunələr və onlara həsr olunan araşdırmaların meydana çıxdığı tarixi və müasir şərait nəzərə alınmışdır. İşin mahiyyəti müqayisəli təhlil və tədqiq tələb etdiyindən dissertasiyada sistemli müqayisələrdən də istifadə olunmuşdur.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti müasir dövrdə Avropada yaşayan Azərbaycan diasporunun mətbu fəaliyyəti və milli ideologiya məsələləridir. Məlum olduğu kimi, Avropa istər tarixən, istərsə də bu gün ictimai–siyasi proseslərin zənginliyi ilə diqqəti cəlb edir. Bu səbəbdən, dünyanın müxtəlif ölkələrinin nümayəndələri siyasi, ideoloji və mədəni sferada fəaliyyətlərini əsasən Avropada reallaşdırmağa, beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olmağa çalışır. Azərbaycan diasporu da həmçinin. Qısa zaman ərzində Avropada cəmiyyət və ictimai birliklər yaratmağa nail olan soydaşlarımız ideoloji işi daha çox qəzet və jurnallar vasitəsi ilə həyata keçirir. Onlardan "Ana dili", "Ərk", "Azər", "Savalan" (Almaniya), "Dədə Qorqud" (İspaniya), "Qürbət" (Brüssel), "Aydınlıq" (İngiltərə), "Azərbaycan türkləri", "Xəzər" (Türkiyə), "Azərbaycan" (İsveçrə), "Azərbaycan" (ABŞ), "Araz" (İsveç), "Ziya", "İnam" (Rusiya), "Savalan", "Millət" (Ukrayna), "Araz" (Moldova) və s. kimi dərgiləri misal göstərmək olar.

Fərəhli haldır ki, mətbuatımızın yayım coğrafiyası yalnız Avropa və ya qitənin aparıcı ölkələri–Almaniya, Fransa, Türkiyə və İngiltərə ilə məhdudlaşmır. Bu siyahıya Amerika Birləşmiş Ştatlarında çap olunan "Dirilik" (Vaşinqton), "Azərbaycan", "Əlifba", "Beynəlxalq Azərbaycan" (Los-Anceles), "Reform", "Bablyon Azerbaijan" (Sietl), İsveçdə "Tribun", "Durna", "Azərbaycan", "Araz" (Stokholm), Rusiyada "АЗЕРРОС. Азербайджанцы России" (Azərros. "Rusiya Azərbaycanlıları", "Salam", "Понорама Азербайджана" (Azərbaycanın ponoramı), "Azərbaycan diasporu", "Vətən çağırır" (Moskva), "Azərbaycan-media" (İvanovo), "Bizim qəzet" (Kemerovo), "Azərbaycan" (Vladivostok), "Yurd" (Saratov), "İnam" (Sankt-Peterburq), "Al Xayat" (Nijni Novqorod), "Birlik" (Xantı-Mansiysk), Dağıstanda "Dərbənd" (Dərbənd), Estoniyada "Ocaq" (Tallin), Ukraynada "Savalan" (Dnepropetrovsk), "Эхо Азербайджана" (Azərbaycanın əks-sədası), "Голос Азербайджана (Azərbaycanın səsi) (Kiyev), "Millət" (Simferopol), Polşada "Xüdafərin" (Varşava), İspaniyada "Dədə Qorqud" (Madrid), Moldovada "Araz" (Kişinyov), Kanadada "Azəri" (Ontario), İranda "İnqilab yolunda" (Tehran) və sair mətbu orqanları daxil etmək olar. Dissertasiyanın obyekti isə əsasən Avropada aktivliyi və məhsuldarlığı ilə diqqəti cəlb edən dərgilərimizi araşdırmaq, onları narahat edən problemləri və həmin problemlərdən çıxış

yollarını, həmçinin diaspor dərgilərinin ideoloji fəaliyyət konsepsiyasını təhlil etməklə gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirməkdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya müasir dövrdə Avropada Azərbaycan diasporunun mətbu fəaliyyətini və milli ideologiya məsələlərini sistemli şəkildə araşdıran ilk monoqrafik tədqiqatdır. İşin elmi yeniliyini həmçinin bir sıra amillərlə izah etmək olar:

- Dissertasiyada Avropada dərc olunan əksər diaspor mətbu orqanları ilk dəfə olaraq araşdırılmış və həmin dərgilərin yaranma tarixi, fəaliyyət strategiyası, məqsəd və vəzifələri barədə ətraflı məlumat verilmişdir;
- Diaspor mətbu orqanlarımızı düşündürən və narahat edən problemlər sistemli şəkildə tədqiq edilmiş və həmin problemlərdən konkret çıxış yolları göstərilmişdir;
- İlk dəfə olaraq diaspor mətbu orqanlarımızla dünyanın aparıcı diaspor təşkilatlarının nəşr etdirdiyi dərgilər arasında müqayisəli təhlillər aparılmışdır;
- Dövlət – diaspor münasibətləri ilk dəfə olaraq elmi baxımdan təhlil olunmuş, bu münasibətlərin inkişaf istiqamətləri müəyyən edilmiş və qeyd olunan sahədə konkret təkliflər verilmişdir;
- “Kataklizm diasporu”, “Diasporilizasiya” və s. kimi yeni terminlərdən istifadə olunmuş, həmin terminlərin elmi izahı verilmişdir;
- Beynəlxalq münasibətlər sistemində və təbliğatçılıq işində özünəməxsus yeri olan diaspor siyasətinin mənfi və müsbət tərəfləri ilk dəfə təhlil olunmuş, diaspor təşkilatlarının ölkələrin daxili siyasətinə təsiri mexanizmi araşdırılmışdır;
- İlk dəfə olaraq diasporun növləri, forma və metodları elmi baxımdan təhlil edilmiş, sistemləşdirilmişdir;
- Diaspor mətbuatı ilk dəfə olaraq ideoloji aspektdən təhlil olunmuş, milli ideoloji dəyərlərin formalaşması və inkişafında mühacirət və diaspor mətbu orqanlarımızın rolu izah edilmiş, diaspor təşkilatlarının da ideoloji fəaliyyət konsepsiyasının mühüm istiqamətləri göstərilmişdir;
- Ayrı-ayrı diaspor mətbu orqanları mövzusuna, ideoloji mücadilədə nümayiş etdirdiyi metoda, mübarizə üsuluna görə qruplaşdırılmış, diaspor mətbuatının oxşar və fərqli cəhətləri təqdim olunmuşdur;
- Azərbaycan diasporunun radio və televiziya orqanları, onların yayım coğrafiyası, həmçinin internet resursları sistemli şəkildə araşdırılmışdır.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti**. Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti hər şeydən əvvəl onunla əlaqədardır ki, dissertasiyada Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu, diasporumuzun

strateji fəaliyyət proqramı və ümummilli maraqların təbliğ olunması istiqamətində əhəmiyyəti, diaspor mətbu orqanlarımızın tarixi və müasir dövr inkişaf istiqamətləri barədə ətraflı məlumat verilir. Gəlinən nəticələrdən isə diaspor sahəsində çalışan qurumlar və təşkilatlar, o cümlədən cəmiyyət və ictimai birliklər yararlana bilər.

Aparılan araşdırmalar nəticəsində diaspor mətbu orqanlarının yaradıcı üslubu və informativ imkanları da geniş təhlil edilmişdir. Bu isə həmin dərgiləri tanımaqla yanaşı, onlarla əlaqələrin qurulması və istər təbliğatçılıq, istərsə də ideoloji işin yüksək səviyyədə həyata keçirilməsi baxımından mühüm önəm kəsb edən informasiya mübadiləsinin yaranmasına imkan verir.

**İşin aprobasiyası.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Azərbaycan Ədəbiyyatı kafedrasında (2009-cu ildə bu kafedranın adı "Azərbaycan Ədəbiyyatı və Jurnalistikası" idi) yerinə yetirilmişdir. Tədqiqatın məzmunu, başlıca nəticələri müəllifin beynəlxalq və respublika səviyyəli elmi konfranslarda etdiyi məruzələrdə, kitabında, həmçinin ölkədə və xaricdə çıxan nüfuzlu nəşrlərdə çap olunmuş elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Azərbaycan diasporunun sələfi – milli mühacirət mətbuatının yaranma tarixi**" adlı I fəsli ümumilikdə iki yarımfəsildən ibarətdir. Mühacirət tariximizin müxtəlif mərhələlərini əhatə edən, xüsusən Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaşanan ictimai-siyasi mühit və tarixi hadisələrdən irəli gələrək soydaşlarımızın əsasən Avropa ölkələrinə üz tutması, bütün təhdidlərə, siyasi təzyiqlərə baxmayaraq ideoloji fəaliyyət konsepsiyasını davam etdirməsi və görülən önəmli işlərin mühüm tərkib hissəsi olan mühacirət mətbu orqanlarının nəşrinə nail olmaları bu fəslin ana xəttini təşkil edir. Bildirilir ki, Qərbi Avropa ölkələri ilə Azərbaycan arasında münasibətlərin inkişafı əsasən XX əsrin əvvəlində qeydə alınıb. Məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dönəmində yaradılan diplomatik əlaqələr, təşkil edilən ilk rəsmi səfərlər, eləcə də müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətləri 1920-ci ildən, daha dəqiq desək Cümhuriyyətin süqutundan sonra kütləvi hal alan miqrasiya prosesində soydaşlarımızın gələcək fəaliyyət istiqamətlərini müəyyən etməsi baxımından mühüm rol oynadı. Nəticədə,

Avropada ziyalı təbəqəsindən ibarət və itirilmiş müstəqilliyin bərpası uğrunda mübarizə aparan, düşünülmüş ideoloji fəaliyyət proqramına malik azərbaycanlılardan ibarət mühacirət dalğası və mühacirət mətbu orqanları yarandı.

Lakin soydaşlarımızın istər həmin, istərsə də sonrakı dövrlərdə təşkilatçılıq, təbliğatçılıq istiqamətində, həmçinin cəmiyyət və ictimai birliklər, mətbu orqanlar yaratmaq məqsədilə xüsusən Avropaya can atması, qitə ölkələri ilə əlaqələri genişləndirməyə çalışması özlüyündə daha bir neçə mühüm amillə bağlıdır. Həmin səbəbləri isə politiloq Musa Qasımov "Azərbaycanın xarici siyasəti" adlı kitabında bu cür səciyyələndirir: "Əvvəla, Avropa dövlətlərinin əksəriyyəti dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına daxildir. İkinci dünya müharibəsindən sonra, ötən əsrin 50-ci illərində meydana gələn ikinci iqtisadi güc mərkəzi kimi Qərbi Avropa sürətlə inkişaf edir, dünya bazarında digər güc mərkəzləri ilə kəskin rəqabət aparır, qabaqcıl texnologiyasını və mallarını başqa ölkələrdə yerləşdirə bilir və iqtisadi cəhətdən nümunə rolunu oynayır. Azad bazar iqtisadiyyatı ilə irəliləyən Qərbi Avropa ölkələrinin təcrübəsi, texnologiyası Azərbaycana gərəklidir. Azərbaycan Avropaya üçüncü ölkə vasitəsilə deyil, özü birbaşa çıxmalı, möhkəmlənməli və tərəqqi etməlidir.

İkincisi, dünyanın siyasi və hərbi cəhətdən qüdrətli dövlətləri kimi Avropa ölkələri planetdəki ümumi ab-havaya, dövlətlərarası ikitərəfli və çoxtərəfli əlaqələrə, dünya siyasətinə təsir göstərirlər. Dünyanın bu və ya digər regionunda baş verən hadisələrdə, münaqişələrin həllində Avropa ölkələrinin sözü mühüm və təsirli olur. Avropa dövlətləri ilə yaxınlaşmaq və əməkdaşlıq, onların mənfəətlərinin ödənilməsi ölkəmiz üçün təhlükəli olan Rusiya və İran tufanının qarşısını ala bilər, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə, Ermənistanın təcavüzkarlığı nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunmasına, ölkəmizə qarşı xarici hərbi təcavüzün qarşısının alınmasına kömək edərdi. Yəni, belə əməkdaşlıq tərəflərə qarşılıqlı mənfəət gətirər.

Üçüncüsü, bir çox beynəlxalq təşkilatlar Avropada yerləşirlər. Qitə ölkələrinin bir qismi onların yaradıcıları kimi böyük nüfuza malikdir. Həmin təşkilatların qəbul etdiyi qərarlar daha çox bu dövlətlərin mövqelərindən asılı olur. Deməli, onlarla əməkdaşlığın da bu baxımdan böyük əhəmiyyəti var.

Dördüncüsü, Avropa ölkələrinin paytaxtlarında səslənən bu və ya digər fikir dünya ictimai rəyinə müvafiq təsir göstərir. Həmin ölkələrlə əlaqələrin qurulması Azərbaycan xalqı və dövlətinin müsbət imicinin

formalaşmasına, dünyada qəbul olunmasına, problemlərimizin həllinə, başqa dövlətlərin bizə iqtisadi, siyasi, mədəni, humanitar və mənəvi yardım göstərməsinə kömək edərdi”[1].

Qeyd olunan amillər, xüsusən də Avropanın qlobal münasibətlər sistemində aparıcı rolu, qitə ölkələrinin zaman – zaman beynəlxalq miqyasda yaşanan ictimai-siyasi proseslərin mərkəzinə, dünyanın nizamını dəyişmək gücünə malik mühüm qərarların qəbul olunduğu arenaya çevrilməsi özlüyündə istər tarixi, istərsə də müasir miqrasiya proseslərinin əsasını, real səbəblərini əks etdirir. Təsadüfi deyil ki, müxtəlif illərdə bu arenada formalaşan mühacirət və diaspor dalğaları siyasi proseslərin tərkib hissəsi olmağa, rəhbər tutduqları ideoloji xətti təbliğ etməklə real güc mənbəyinə çevrilməyə və qitə ölkələrinin timsalında dəstək qazanmağa çalışıblar. Azərbaycan mühacirləri də həmçinin. Soydaşlarımızın istər Almaniya, istər Fransa, istər Türkiyə, istərsə də İngiltərədə Vətənə bağlılıq, həmrəylik prinsipləri, milli-mənəvi dəyərlərin təbliğ olunması, tarixi həqiqətlərin obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırılması istiqamətində rolu və əldə olunan nailiyyətlər barədə isə dissertasiyanın I fəslinin “**Azərbaycan mühacirətinin formalaşmasını şərtləndirən tarixi və ictimai-siyasi şərait**” adlı birinci yarımfəslində ətraflı məlumat verilir. Bildirilir ki, Qərbi Avropa ölkələri ilə Azərbaycan arasında münasibətlər kifayət qədər qədim tarixi dövrü əhatə edir. Hələ XIX əsrin sonu, XX əsrin əvvəllərində İngiltərə, Almaniya, İsveç və Avropanın digər aparıcı ölkələrinin nüfuzlu şirkətləri Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərir və həmin sahələrin inkişafına çalışırdılar. Əlbəttə, burada həmin dövlətlərin özlərinin də iqtisadi, siyasi və strateji mənafelər güddüyünü unutmamalıyıq. Bu səbəbdən də bəzən Azərbaycanda Avropa dövlətlərinin mövqələri toqquşur, gizli, hətta açıq ziddiyyətə də çevrilirdi.

Lakin bütün bu ziddiyyətlərə baxmayaraq, Avropaya inteqrasiya yolunu tutmuş ölkəmiz zaman-zaman Qərbin inkişaf tempi ilə ayaqlaşmağa çalışmış, dünya siyasətinin müəyyən edilməsində söz sahibi olan ölkələrlə faydalı münasibətlər qurmağa, ikitərəfli əlaqələr yaratmağa nail ola bilmişdi.

Bu münasibətlərin əsası isə XX əsrin əvvəllərində, daha dəqiq desək 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyuldu. Məhz həmin dönəmdə müstəqil Azərbaycan dövləti ilə Avropa ölkələri

---

[1] Qasımov M. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələləri), Bakı: Mütərcim, 1997, s.49-50

arasında diplomatik əlaqələr yaradıldı, ilk rəsmi səfərlər təşkil olundu, eləcə də müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətləri quruldu. Bu cür əlaqələr isə müstəqilliyini yenicə elan etmiş və beynəlxalq münasibətlər sisteminə qoşulmağa can atan gənc dövlət üçün mühüm önəm kəsb edirdi[1]. Odur ki, dünya siyasətinə nüfuz etməklə beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmaq və bununla da müstəqilliyin daha uzunömürlü olmasına və təbliğat işinin uğurla aparılmasına çalışan Azərbaycan Xalq Cümhuriyyəti Qərbi Avropa ölkələrində və ABŞ-da xüsusi nümayəndəliyin açılmasını zəruri hesab edirdi. Müxtəlif ölkələrdə Azərbaycanın mənafeyinin müdafiə olunması, ictimai rəyin obyektiv məlumatlarla Vətənin xeyrinə formalaşdırılması, Azərbaycanda hansı hökumətin olması, onun müstəqilliyə can atması və demokratiya uğrunda mübarizəsinin əsl səbəbləri barədə məlumat vermək, danışıqlar aparmaq həmin nümayəndəliklərin əsas vəzifəsi idi. Nəticədə, 1920-ci il aprelin 15-də Azərbaycan parlamentində Avropa ölkələrinə və ABŞ-a diplomatik nümayəndəliklər göndərmək haqqında qanun layihəsi müzakirə edildi. Parlamentin aprelin 19-da keçirilən iclasında isə Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul olundu[2].

Lakin 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xaricə axının miqyası xeyli azalsa da, demokratik respublikanın süqutu nəticəsində faciəli bir vəziyyət formalaşdı. Cümhuriyyətin qurucularının və tərəfdarlarının bolşeviklər tərəfindən ciddi təzyiq və təqiblərə məruz qalması onları ölkəni tərk etmək məcburiyyətində qoydu. Təsadüfi deyil ki, həmin dövr azərbaycanlıların xaricə miqrasiyasının kütləvi xarakter aldığı mərhələlərdən biri oldu. XX əsrin əvvəllərində bolşeviklərin təqiblərindən qurtulub xarici ölkələrə mühacirət edənlərdən Əlimərdan bəy Topçubaşov, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev (Ağaoğlu), Məhəmməd Əmin Rəsulzadə, Nağı bəy Şeyxzamanlı, Cahangir Kazımbəyli, Səid Əlizadə, Ceyhun Hacıbəyli və bir çox başqa tanınmış simalar qürbətdə azərbaycanlıların təşkilatlanması prosesinin və mühacirət dalğasının əsasını qoydular.

Sonrakı illərdə də, xüsusən II Dünya müharibəsi zamanı azərbaycanlıların Avropada aktiv fəaliyyəti davam edib. Sovet imperiyasının hədəfinə çevrilmək və ideologiyanın qurbanı olmaq

---

[1] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, (dərslik), Bakı: Azərbaycan, 2005, s. 63

[2] Yenə orada, s. 80

istəməyən soydaşlarımız Vətənə dönə bilməyərək qitə ölkələrində ictimai-siyasi proseslərə qatılır, sosial həyatın müxtəlif sahələrində çalışırdılar.

Araşdırmalar göstərir ki, Azərbaycanlıların Avropaya mühacirətinin digər böyük dalğası ötən əsrin ortalarına təsadüf edir. İranda baş verən hadisələrlə əlaqədar on minlərlə soydaşımız Qərb ölkələrinə üz tutmaq məcburiyyətində qaldı. Bu dalğa Avopada azərbaycanlıların sayının çoxalmasına, əhatə dairəsinin və fəaliyyət coğrafiyasının genişlənməsinə səbəb oldu. Lakin təəssüflər olsun ki, bu axın Şimaldan və Cənubdan eyni coğrafi məkana köç etmiş mühacir soydaşlarımızın birgə fəaliyyəti, vahid mövqe və koordinasiya olunmuş proqram əsasında iş birliyi ilə nəticələnmədi. İllərdir müxtəlif ideologiyanın təsiri ilə formalaşan, bu üzdən eyni hadisəyə fərqli yanaşma tərzi ilə seçilən həmvətənlərimiz yalnız həmin dövrdə deyil, SSRİ-nin süqutundan sonra da hətta diaspor olaraq bir araya gəlmək, mövcud problemlərin həllində vahid mövqedən çıxış etməkdə çətinlik çəkdilər və təəssüflər olsun ki, həmin çətinliklər, fikir ayrılığı, şəxsi maraqlar və s. bu gün də davam edir.

Bununla belə, mühacirətin bütün çətinliklərinə, siyasi və ideoloji təhdidlərə baxmayaraq sonadək mübarizə aparan, Avropanın ictimai-siyasi münasibətlər sisteminə sıx inteqrasiya edən soydaşlarımız bu illər ərzində həm düşünülmüş ideoloji fəaliyyət konsepsiyası ortaya qoyub, həm də təbliğatçılıq işində ayrı-ayrı ölkələrdə ictimai-siyasi, mədəni yönümlü təşkilat və cəmiyyətlər yaratmaq, milli mətbuatın nəşrinə nail olmaqla mühacirət tarixində silinməz izlər buraxıblar. Ən əsası isə onlar inanırdılar ki, həmvətənlərimizin təşkilatlanmasında, əlaqələrin intensivləşməsində, milli istiqlaliyyətin gerçəkləşməsində həmişə demokratik mövqeyi ilə seçilən mətbuatımız böyük rol oynaya bilər. Odur ki, istər Azərbaycan Xalq Cümhuriyyəti dönəmində, istərsə də Demokratik Respublikanın süqutundan sonra mühacir soydaşlarımız mövcud çətinliklərə və aramsız təhdidlərə baxmayaraq ayrı-ayrı ölkələrdə mətbu orqanlar, kitab və bülletenlər nəşr etdirməyə, bununla da, azərbaycançılıq ideologiyasının uğurlu təbliğinə müvəffəq olmuşlar. Bu da təsadüfi deyil. Daim mətbuatla əlaqəli şəkildə ictimai, siyasi və ya ədəbi yaradıcılıqla məşğul olan həmvətənlərimiz fəaliyyətləri dövründə söz və fikir azadlığına hər zaman xüsusi önəm vermişlər. Hətta AXC dövründə, daha dəqiq desək, 1919-cu ildə “Mətbuat haqqında nizamnamə”nin qəbulu da məhz jurnalist yaradıcılığına, mətbuata, söz və düşüncə azadlığına hörmətdən, qayğıdan irəli gəlirdi. Həmin nizamnamədə əksini tapan maddə və prinsiplərə müasir dövrdə Avropanın müxtəlif ölkələrinin mətbuat haqqında istənilən qanunlar toplusu belə, qibtə edə bilər. Odur ki, mətbuata bu cür önəm verən

ziyalılarımız mühacirət həyatı yaşadıqları dönəmdə həmişə yaradıcılığa, mətbu fəaliyyətə, milli ideologiyanın önəmli prinsiplərinin təbliğinə, eləcə də soydaşlarımız arasında məhz mətbuat vasitəsilə birlik və həmrəyliyə nail olunmasına çalışmışlar. Bu baxımdan tam əminliklə söyləmək olar ki, mühacirlərimizin bu illər ərzində qazandığı və bizə miras qoyduğu ən böyük uğurlardan biri də əlbəttə ki, dövrünün ictimai-siyasi proseslərini işıqlandıran, aktiv təbliğatçılıq işi ilə məşğul olan dərgilərdir. Həmin dərgilər barədə isə dissertasiyanın I fəslinin **"Avropada mühacirət mətbuatı: proqramı, mövzusu, məqsəd və vəzifələri"** adlı ikinci yarımfəslində məlumat verilir.

Bu günədək müxtəlif ziyalılarımız tərəfindən aparılan araşdırmalar və arxiv sənədləri göstərir ki, Avropada Azərbaycan mühacirət mətbuatı kifayət qədər qədim və zəngin tarixə malikdir. Mühacirət mətbuatını uzun illər araşdırmaqla maraqlı və bir o qədər də əhəmiyyətli elmi nəticələrin, tədqiqat işlərinin müəllifi olan Abid Tahirli "Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991)" əsərində mühacirət mətbuatının təsnifatını bu cür qruplaşdırır:

- Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəni tərk etməyə məcbur olmuş mühacirlərin siyasi nəşrləri: "Yeni Qafqasiya" (1923-1927), "Azərbaycan" (1926), "Azəri-türk" (1928-1930), "Yaşıl yapraq" (1928), "Odlu yurd" (1929-1931), "Bildiriş" (1930-1931). 1929-1931-ci illərdə işıq üzü görən orqanları şərti olaraq İstanbul nəşrləri adlandırmaq olar;
- Azərbaycan mühacirlərinin elmi-nəzəri-mədəni nəşri "Azərbaycan yurd bilgisi" (1932-1934 və 1954);
- 1930-cu illərin Azərbaycan mühacirət mətbuatı: "İstiqlal" (1932-1934), "Qurtuluş" (1934-1939), "Milli Azərbaycan Müsavat Xalq Firqəsi" bülleteni (1936, 1-ci sayı). Həmin dövrdə bir-iki sayı çapdan çıxmış "Açıq söz" (1936, №2), "Kutlu od" (1936-1937, №2), "Aydın yel" (1937, №1), "Doğru söz" (1937, №2), "Vətən diləyi" (1937, №2), "Milli atəş" (1938, №1), "Millət andı" (1938, №1), "Yasamız" (1938, №1), "İlham qaynağı" (1938, №1), "Müqəddəs odlar ölkəsi" (1938, №1), "Haqqın səsi" (1938, №1), "Dilək" (1939, №4), "Haqq" (1939, №1), "Həmlə" (1939, №1) məcmuələrini də bu siyahıya aid etmək olar;
- İkinci dünya müharibəsi dövrünə aid Berlin nəşrləri: "Azərbaycan", "Hücum", "Milli birlik" (1943-1945);
- 1950-80-ci illərin mühacirət nəşrləri: "Azərbaycan" (1952, Ankara), "Azərbaycan" (1952, Münhen), "Mücahid" (1955), "Türk yolu" (1951), "Ergenekon yolu" (1951), "Türk izi" (1951) və s;

- 1980-ci illərin ikinci yarısından nəşrə başlayan mətbuat: “Ana dili” (Bonn), “Odlar ölkəsi” (Edinburq), “Dədə Qorqud” (İspaniya), “Qürbət” (Brüssel), “Aydınlıq” (London), “Azərbaycan türkləri”, “Xəzər” (İstanbul), “Azərbaycan” (Stokholm), “Azərbaycan” (Vaşinqton), “Araz” (Lund, İsveç), “Azər” (Berlin), “Savalan” (Berlin), “Ərk” (Almaniya), “Ziya” (Moskva), “İnam” (Sankt-Peterburq), “Savalan” (Dnepropetrovsk, Ukrayna), “Millət” (Simferopol, Ukrayna), “Araz” (Kişinyov, Moldova) və s.;

- Azərbaycan müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə (1991-ci ildən) nəşr olunan mətbu orqanlar; bu dövrdə ABŞ, Rusiya, Ukrayna, Almaniyada bir sıra mühacir nəşrlər fəaliyyət göstərir[1].

Biz isə dissertasiyada adları çəkilən qəzet və jurnalları mövzumuza uyğun, Almaniya, Fransa, Türkiyə və İngiltərə ölkələri üzrə qruplaşdırmaqla təhlil etmiş, onların fəaliyyət istiqamətlərinə, yayım coğrafiyalarına və ideoloji fəaliyyət proqramlarına nəzər salmışıq. Bu bölümdə aparılan araşdırmaların nəticəsi olaraq o da qeyd olunur ki, Azərbaycan mühacirət mətbuatının tarixini, xüsusən də ötən əsrin 80-ci illərinin əvvəllərinədək fəaliyyət göstərən mühacirət mətbuatımızı izləyərkən, özünəməxsus mövzusu, ideya-istiqaməti, dili, üslübü, sənətkarlıq xüsusiyyətləri ilə seçilən qəzet və jurnallarda nəzərə çarpan son dərəcə maraqlı bir məqam diqqəti çəkir: həmin mətbu orqanlarda Cənubi Azərbaycan mövzusuna, demək olar ki, təsadüf edilmir. Bu amili mücahidlərin Cənubi Azərbaycanla təmaslarının zəifliyi, yaxud onların bu mövzuya biganəliyi kimi izah etmək doğru deyil. Hələ 20-ci illər və 30-cu illərin əvvəlləri İstanbul nəşrlərinin (“Yeni Qafqasiya”, “Azəri-türk”, “Odlu yurd”, “Bildiriş”) materiallarından məlum olur ki, mücahidlər İranla əlaqə saxlayır, öz nəşrlərini bu ölkə vasitəsilə SSRİ-yə göndərirlər. SSRİ-dən qaçan azərbaycanlıların əksəriyyəti İrandan keçərək, Türkiyədə, Avropanın digər ölkələrində məskunlaşırdılar. 30-cu illər Berlin nəşrlərindən də (“İstiqlal”, “Qurtuluş”) aydın olur ki, mücahidlərin İranla müəyyən əlaqələri davam etməkdədir. Həmin nəşrlərin az qala hər nömrəsində İran vasitəsi ilə SSRİ-ni tərk edən azərbaycanlılardan ibarət “mühacir seli” haqqında yazılır. Mühacirlər İran, o cümlədən Cənubi Azərbaycan mövzusuna tez-tez müraciət etmişlər[1].

---

[1] Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991), Bakı: CBS, Polygraphic production, 2005, 528 s.

[1] Dirçəliş XXI əsr. Bakı: 2005, fevral – mart, № 84-85, s. 342.

Beləliklə, qeyd olunan faktlar mühacirət mətbuatımızın kifayət qədər zəngin və uzun tarixi yol keçdiyini söyləməyə əsas verir. Bu gün isə ideoloji işi və təbliğatçılıq missiyasını diaspor mətbuatımız uğurla davam etdirir. Xüsusən müstəqillik illərində Azərbaycan diasporunun formalaşması və milli ideoloji prinsiplər uğrunda mübarizəsi əlbəttə ki, mətbu orqanlarımızdan da yan keçə bilməzdi. Soydaşlarımızın həm intellektual səviyyə, həm maddiyyat, həm də cəmiyyətdə tutduğu mövqe baxımından əldə etdiyi uğurlar diaspor mətbuatımızın da inkişafına zəmin yaratdı. Hazırda dünyanın bir sıra inkişaf etmiş ölkələrində mətbu nümunələrimizə rast gəlmək mümkündür. Həmin mətbu orqanlar mövzu rəngarəngliyi, yayım coğrafiyası ilə, Şimali və Cənubi Azərbaycanda baş verənləri obyektiv işıqlandırmaqla yalnız həmvətənlərimizin deyil, əcnəbilərin də maraq dairəsindədir. Odur ki, bu dərgilərin gücündən maksimum istifadə etməklə həm diasporumuzun vahid ideologiya və milli dəyərlər çərçivəsində səmərəli fəaliyyətinə, həm Avropa ictimaiyyətinin Azərbaycan və azərbaycançılıq barədə düşüncələrinin formalaşmasına, həm də diasporçuluq sahəsində önəmli amillərdən sayılan təbliğatçılıq işinin yüksək səviyyədə aparılmasına nail olarıq. Bütün bunlar barədə isə dissertasiyanın **"Avropada Azərbaycan diasporu və mətbuatının formalaşması mərhələləri"** adlı II fəslində ətraflı məlumat verilir. Dissertasiyanın ana xəttini təşkil edən bu fəsil üç paraqrafdan ibarətdir.

"**Diasporun təşəkkül və inkişaf tarixi, fəaliyyət strategiyası, məqsəd və vəzifələri"** adlanan birinci yarımfəsildə müasir dövrdə dünyanın əksər inkişaf etmiş ölkələrində, xüsusən də Almaniya, Fransa, Türkiyə və İngiltərə kimi Avropa ölkələrində yaşayan soydaşlarımız, onların sayı, yaradılan cəmiyyətlər, həmin təşkilatların aktiv ideoloji təbliğatçılıq işi və qlobal ictimai-siyasi, mədəni sferada fəaliyyətinə toxunulur. Bildirilir ki, diasporun başlıca məqsədi Azərbaycan xalqının mədəniyyətini, tarixini, adət-ənənələrini yaşadaraq geniş təbliğ etmək, tarixi həqiqətlərlə yanaşı, ölkəmizin bu günkü durumunu, Dağlıq Qarabağ probleminin obyektiv səbəbləri və bu problemin yaratdığı fəsadları yaşadıqları ölkənin ictimaiyyətinə çatdırmaqdan, illərdir erməni diaspor və lobbi qüvvələrinin apardığı yalançı siyasəti ifşa etməkdən ibarətdir. Bu istiqamətdə isə ilk növbədə, ümummilli lider Heydər Əliyevin miras qoyduğu azərbaycançılıq ideologiyası və bu ideologiyanın önəmli tərkib hissəsi olan dünya azərbaycanlılarının həmrəyliyi, müstəqil Azərbaycanın milli maraqları, həmçinin təbliğatçılıq işini müasir dövrün tələblərinə uyğun keyfiyyətcə yeni müstəviyə çıxarmaq, ötən illərin təcrübəsindən, habelə, diaspor quruculuğu sahəsində nailiyyətləri ilə seçilən başqa

xalqların (türk, yəhudi, yunan) təcrübəsindən faydalanmaq, onlarla qarşılıqlı əməkdaşlıq münasibətlərini daha da dərinləşdirmək, bir sözlə, tarixi və regional faktorlarla yanaşı, mövcud siyasi reallıqları da nəzərə almaq kimi mühüm strateji fəaliyyət metodlar əsas götürülür. Lakin qarşıya qoyulan məqsədin effektiv şəkildə reallaşdırılması və konkret nəticələrin əldə olunması üçün ilk növbədə cəmiyyət və ictimai birliklərin aktiv fəaliyyəti də tələb olunur ki, bu baxımdan Almaniyada yaşayan soydaşlarımız xüsusilə diqqəti cəlb edir. Azərbaycan diasporu bu ölkədə "Berlin Azərbaycan Kültür Ocağı", "Azərbaycan-Almaniya Akademiyası", "Azərbaycan Kültür Ocağı", "Alman-Azərbaycan Cəmiyyəti", "Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti", "Almaniyada Azərbaycan Evi", "Odlar Yurdu", "21 Azər Cəmiyyəti", "Azərbaycan-Alman Kültür Cəmiyyəti" və s. kimi təşkilatların yaradılmasına nail olub. Bununla yanaşı, həmvətənlərimiz Almaniyada fəaliyyət göstərən təşkilatların birləşməsi və vahid mərkəzdən idarə olunması istiqamətində də real addımlar atır. Görülən mühüm işlərdən biri isə 1996-cı il iyulun əvvəllərində, Berlində Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyasının (AAF) təsis olunması, 2004-cü ildə isə Avropa Azərbaycanlıları Konqresinin (AAK) yaradılmasıdır. Lakin mövcud imkanlar daha böyükdür və həmin imkanlardan səmərəli istifadə etməyin, istər təşkilatçılıq, istərsə də təbliğatçılıq istiqamətində daha uğurlu nəticələrin əldə olunmasının konkret yolları, fəaliyyət konsepsiyası var ki, bu barədə də dissertasiyada ətraflı məlumat verilir.

Dissertasiyanın II fəslinin birinci yarımfəslində həmçinin Türkiyədə yaradılan və təbliğatçılıq işində bu gün də mühüm nəticələr əldə edən "İqdır Azərbaycan Türk Kültürünün Tanıtma Dərnəyi", "Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyəti", "Azərbaycan Cəmiyyəti", "Türkiyə-Azırbaycan Dostluq Cəmiyyəti", "Azərbaycan Mədəniyyət və Təhsil Fondu", "Azad Azərbaycan həmrəylik qrupu", İngiltərədə fəaliyyət göstərən "Azərbaycan Dayaqçıları Cəmiyyəti", "Azərbaycan Mədəniyyət Mərkəzi", "Anqlo-Azəri (İngiltərə-Azərbaycan) Cəmiyyəti", "Sara Xatun" Azərbaycanlı Qadınlar Cəmiyyəti", eləcə də Fransada əsası qoyulan "Azərbaycan Mədəniyyətini və Sivilaziyasını Öyrənən Mərkəz"i, "Azərbaycan Kültür Cəmiyyəti", "Fransa-Azərbaycan Kültür Cəmiyyəti", "Azərbaycan evi", "Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti" haqqında maraqlı məlumatlar var. Bu bölümdə Avropada yaşayan soydaşlarımızı narahat edən problemlər və həmin problemlərdən çıxış yolları da təhlil olunub, müasir dövrün tələblərindən irəli gələn bir sıra təklifər verilib və qeyd olunan məqamlar sistemli şəkildə, konkret fakt və nümunələrlə izah

edilib. Ümumilikdə isə Avropada, xüsusən də qitənin dörd aparıcı ölkəsi sayılan Almaniya, Fransa, Türkiyə və İngiltərədə Azərbaycan diasporunu düşündürən problemlər dissertasiyada aşağıdakı kimi qruplaşdırılıb.

- Totalitar sovet rejimi xaricdə yaşayan həmvətənlərimizin öz doğma vətənləri ilə əlaqə saxlamasına, gediş-gəlişə imkan vermədiyinə görə tərəflər arasında ünsiyyətin lazımi səviyyədə qurulmaması;

- Xaricdəki soydaşlarımızın daim qorxu və təqib içində yaşadıqlarına görə təşkilatlana bilməməsi (Mühacir azərbaycanlılar elə güman etmişlər ki, istər sovet, istərsə də İran şahlıq rejimi onları daha tez tapar, özlərinə və ailələrinə sui-qəsdlər təşkil edər. Bu da səbəbsiz deyil. Çünki belə sui-qəsdlər soydaşlarımıza qarşı az olmayıb);

- Sovet Azərbaycanı və Cənubi Azərbaycandan olan soydaşlarımız arasında sıx milli birlik və həmrəylik əlaqələrinin zəifliyi, onlar arasında müəyyən ixtilafların meydana çıxması (Cənubi Azərbaycandan olan soydaşlarımız həddən artıq dindar olduqları üçün şimaldan gəlmiş həmvətənlərini, adətən, məhz bu amilə görə ittiham edir, məzəmmətləyirlər, bu səbəbdən onlarla iş birliyi qurmur, yaxud az qururdular);

- Xaricdə yaşayan soydaşlarımıza təşkilatlanma işinin, diasporun yaradılmasının əhəmiyyəti barədə lazımi səviyyədə məlumatın verilməməsi, onlar arasında təbliğat işinin yetərincə aparılmaması;

- Xaricdə yaşayan soydaşlarımızın çox az qisminin qazandıqları küllü miqdarda vəsaiti milli mənafeyə xərcləmək arzusunda olması (Onların böyük əksəriyyəti diasporun qüvvətlənməsinə yox, öz biznes fəaliyyətlərinin genişlənməsinə və güclənməsinə xidmət edir. Bu isə son nəticədə ümummilli problemlərin həll olunmasına mənfi təsir göstərir);

- Cənubi azərbaycanlılar arasında fars meylli, yaxud farslarla qohumluq əlaqələri olan soydaşlarımızın əksər hallarda milli mənafeyimizlə bağlı ən adi şeylərə belə, öz şəxsi prizmalarından baxması, ümumi bir qənaətə gəlmək istəməməsi (Məsələn, onlar xaricdə dünya azərbaycanlılarının konfransı keçirilərkən tədbirə ölkəmizin üçrəngli bayrağının gətirilməsinə etiraz etmiş, İran bayrağının dalğalanmasına isə israr etmişdilər. Ümumiyyətlə, bir çox problemlərin həllində onların birtərəfli mövqe tutmaları, ümummilli mənafeyi əsas götürməmələri dəfələrlə özünü bu və ya digər şəkildə büruzə vermişdir);

- Xaricdə yaşayan soydaşlarımızın müəyyən qisminin öz şəxsi həyatlarını təmin etmək barədə daha çox düşünməsi (Şübhəsiz ki, bu da çox vacibdir. Amma məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında iştirak etməyə, yüksək vəzifə pillələrində çalışan dövlət məmurları ilə iş birliyi

qurmağa, onlardan bəhrələnməyə çox az fikir verirlər. Məsələn, ermənilərlə müqayisədə bu haqda heç danışmağa dəyməz. Məlumdur ki, dünyanın bir çox inkişaf etmiş ölkələrində ermənilər dövlət qürumlarına, senatorlara, parlament üzvlərinə təsir göstərmək gücünə malikdirlər. Onlar nə iş görürlərsə, yalnız ümummilli mənafeyi əsas tutaraq hərəkət edir, öz məqsədlərinə çatmaq uğrunda məqsədyönlü mübarizə aparırlar)[1].

Qeyd olunan problemlər Avropada güclü və təşkilatlanmış diasporaya sahib olmaq istiqamətində ciddi maneələr yaradır. Odur ki, həmin çatışmazlıqlar daha geniş və sistemli şəkildə araşdırılmalı, onların həlli istiqamətində konkret addımlar atılmalı, diaspor nümayəndələrimizlə müntəzəm görüşlər təşkil etməklə problemlərin həllinə nail olunmalıdır. Lakin bu işdə qarşıda duran əsas vəzifələrdən biri də diaspor mətbuatının bu günkü durumunu, yayım coğrafiyası və ideoloji prosesdə əhəmiyyətli rolunu, müasir dövrün tələbləri ilə nə dərəcədə ayaqlaşdığını təhlil etməkdir. Çünki diasporu və xaricdə dərc olunan informasiya vasitələrimizi bir-birindən ayrı nəzərdən keçirmək və araşdırmaq mümkün deyil. Müasir dövrdə diasporu narahat edən problemlər mətbuatı da düşündürür. Odur ki, həmin çatışmazlıqları, başqa sözlə, ideoloji fəaliyyət konsepsiyasının önəmli tərkib hissəsi sayılan hər iki sahəni paralel araşdırmaq, potensial imkanları müəyyənləşdirmək və mövcud problemləri qısa zaman ərzində effektli, konkret və düşünülmüş fəaliyyət proqramı əsasında həll etməklə güclü təbliğatçılıq imkanlarına malik mexanizm yaratmış olarıq.

Dissertasiyanın II fəslinin ikinci yarımfəsli “**Diaspor mətbuatının yayım coğrafiyası**” adlanır. Burda mühacirət mətbuatımızın təbliğatçılıq işini davam etdirən, lakin ideoloji fəaliyyət konsepsiyasını artıq müstəqil Azərbaycanın tanıdılması, milli dəyərlər, adət-ənənələr və tarixi həqiqətlərimizin olduğu kimi dünya ictimaiyyətinə çatdırılması istiqamətində quran, soydaşlarımızı vahid amal və ümummilli prinsiplər uğrunda mübarizəyə, həmrəyliyə səsləyən diaspor dərgilərimiz barədə ətraflı məlumat verilir. Onlardan Almaniyada işıq üzü görən “Ana dili”, “Azərbaycanın səsi” (Bonn), “Savalan”, “Qaynarca”, “Odlar ölkəsi”, “Ocaq”, “İnfo Azerbaidjan”, “Bayquş”, “Atürpat”, “Azərbaycan”, “Ulus”, “Azərbaycanın səsi” (Köln), “Neue brücke” (Yeni Körpü), Böyük Britaniyada “Aydınlıq”, “Vizions of Azerbaijan & Britain” (Azərbaycan və Britaniyanın baxışı), “Ana yurdum”, “Araz”, “Salam”, “Caspian” (London), Türkiyədə “Xəzər”, “Hazar”, “Azerbeycan”, “Eco Vision”,

---

[1] Həbiboğlu V. Azərbaycan diasporu: vəzifələr, qayğılar, problemlər // Dirçəliş XX əsr, Bakı: 2002, oktyabr, s. 58-60

“Gənc aydın”, “Azərbaycanın səsi” və Fransada “Körpü” və s. kimi qəzet və jurnalları misal göstərmək olar. Bu yarımfəsildə həmin dərgilərin yaranma tarixi, bu günkü yayım coğrafiyası, fəaliyyət strategiyası, tirajı, toxunduğu mövzular, yaradıcı və texniki imkanları, yaşanan hadisələrə operativ reaksiya vermə bacarığı, bəzilərinin bağlanma səbəbləri göstərilir, həmçinin ayrı – ayrı informasiya vasitələrinin rəhbər tutduğu ideoloji fəaliyyət strategiyalarının müqayisəli təhlili aparılır. Bu cür müqayisəli təhlillər isə özlüyündə Azərbaycan diaspor mətbuatının yalnız ümumi deyil, eləcə də hər bir ölkə üzrə xarakterik xüsusiyyətlərini müəyyən etməyə, mövcud imkanları və ya problemləri də məhz həmin xüsusiyyətlərdən çıxış edərək öyrənməyə geniş zəmin yaradır. Aydın məsələdir ki, hər hansı ölkədə diasporumuzun formalaşma və inkişaf tarixi, yaradıcılıq potensialı və daxili ictimai-siyasi proseslərdə nə dərəcədə aktiv iştirakı həmin ölkədə yaradılan mətbu orqanların taleyinə də bilavasitə təsir göstərir. Məsələn, qeyd olunanlardan çıxış edərək Almaniyadakı Azərbaycan diaspor mətbuatının fəaliyyət strategiyasını, özünəməxsus xüsusiyyətlərini bu cür qruplaşdıra bilərik:

1. Bu mətbu orqanlar Azərbaycan mühacirlərinin daha qabaqcıl təbəqəsinin milli-ictimai fikrinin inikası kimi təşəkkül tapıb formalaşmışdır;
2. Diaspor mətbuatımız daha çox demokratik, milli-mənəvi və ictimai dəyərləri, ümumbəşəri sərvətləri özlərinin əsas fəaliyyət prinsipləri kimi qəbul edirlər;
3. Milli kültür və dil böhranını aradan qaldırmağa çalışırlar;
4. Milli zülm və ayrıseçkilik siyasətinə, bütün mürtəce qüvvələrə qarşı ardıcıl şəkildə mübarizə aparırlar;
5. Heç bir kənar ideologiya və məfkurə sisteminə, ictimai-siyasi təşkilat, qrup, partiya, hərəkat və qüvvələrə bağlı olmayan, ən əsası, azərbaycançılıq mövqelərindən çıxış edən demokratik təsisatlar kimi fəaliyyət göstərirlər;
6. Öz səhifələrində fars dilində də məqalə və materiallar dərc etməklə Azərbaycan milli məsələsinin İranın qeyri-azərbaycanlı xalqları arasında aktuallaşmasına çalışırlar;
7. Bir çox hallarda primitiv və kortəbii xarakter daşımalarına, ciddi nöqsanlara, qüsurlara yol vermələrinə baxmayaraq, öz fəaliyyətlərini ardıcıl və sistemli şəkildə davam etdirməyə, daha prinsipial və məqsədyönlü olmağa cəhd göstərirlər.

Bu cür təhlillər dissertasiyanın tədqiqat obyekti olan Fransa, Türkiyə və İngiltərədə çap edilən digər diaspor mətbu orqanları ilə də aparılıb, onların güclü və zəif tərəfləri, fəaliyyətləri ətraflı təhlil olunub.

Dissertasiyada həmçinin Amerika Birləşmiş Ştatlarında işıq üzü görən "Dirilik", "Azərbaycan", "Əlifba", "Beynəlxalq Azərbaycan", "Reform", "Bablyon Azerbaijan", İsveçdə "Tribun", "Durna", "Azərbaycan", "Araz", Rusiyada "АЗЕРРОС. Азербайджанцы России" (Azərros. Rusiya Azərbaycanlıları), "Salam", "Понорама Азербайджана" (Azərbaycanın ponoramı), "Azərbaycan diasporu", "Vətən çağırır", "Azərbaycan-media", "Bizim qəzet", "Azərbaycan", "Yurd", "İnam", "Al Xayat", "Birlik", Dağıstanda "Dərbənd", Estoniyada "Ocaq", Ukraynada "Savalan", "Эхо Азербайджана" (Azərbaycanın əks-sədası), "Голос Азербайджана" (Azərbaycanın səsi), "Millət", Polşada "Xüdafərin", İspaniyada "Dədə Qorqud", Moldovada "Araz", Kanadada "Azəri", İranda "İnqilab yolunda" və sair dərgilərin əhəmiyyətli rolundan bəhs edilir.

Diaspor dərgilərimizin rəhbər tutduğu əsas ideoloji prinsiplər isə dissertasiyada aşağıdakı kimi qruplaşdırılır:

- Azərbaycançılıq ideologiyasının təbliği uğrunda mübarizə;
- Dünya azərbaycanlılarının milli-mənəvi dəyərlər uğrunda birləşməsi və vahid mərkəzdən idarə olunması istiqamətində ideoloji işin aparılması;
- Dünya azərbaycanlılarını istər ölkədə, istərsə də beynəlxalq aləmdə baş verən zəruri informasiyalarla təmin etməklə maarifləndirmə işinin düşünülmüş və dövlətçilik prinsiplərinə uyğun şəkildə təşkili;
- Azərbaycan xalqının milli-mədəniyyətinə, mənəvi dəyərlərinə və ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı antidemokratik fikirlərə qarşı çıxış etmək, insan haqlarına, demokratiyaya zidd keçmiş və hazırkı düşmənlərlə qələm mübarizəsi aparmaq;
- Tarix boyu azərbaycanlıların üzləşdiyi haqsızlıqları, torpaqlarımızın işğal olunması faktını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq və s.

Göründüyü kimi, bu gün Azərbaycan diaspor mətbuatı artıq geniş yayım coğrafiyası, ideoloji fəaliyyət prinsipləri və yaradıcılıq imkanlarına malikdir. Lakin mövcud potensial daha böyük olduğundan və müasir dövrün informasiya, ideoloji müharibəsi, təbliğatçılıq işi artıq daha operativ və keyfiyyətli iş tələb etdiyindən diaspor mətbuatı da dəyişməli, yeni çalarlar əldə etməli, başqa sözlə, qlobal dövrün tələbləri ilə ayaqlaşmalıdır. Odur ki, dissertasiyada diaspor mətbuatının yuxarıda qeyd olunan konkret hədəflərə çatması istiqamətində üzləşdiyi problemlər, həmin problemlərin

həlli yolları geniş şəkildə izah olunur. Aparılan araşdırmaların nəticəsi olaraq bu gün diaspor mətbuatını düşündürən və ciddi şəkildə narahat edən çatışmazlıqları aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1. Maddi durumun qənaətbəxş olmaması;
2. İnformasiya bazasının zəifliyi;
3. Mətbu orqanların Şimali və Cənubi Azərbaycanla əlaqələrinin istənilən səviyyədə və müntəzəm şəkildə qurulmaması;
4. Diaspor mətbuatının yayım coğrafiyasının məhdudluğu;
5. Mətbu orqanlarımız arasında əlaqələrin qənaətbəxş olmaması, onların vahid konsepsiya əsasında fəaliyyət göstərməməsi;
6. Xaricdə mətbuat işi ilə məşğul olan soydaşlarımızın yaradıcılıq və ya jurnalistika sahəsində təcrübəsinin qaneedici olmaması;
7. Mətbu orqanlarımızın əksəriyyətinin əsasən aid olduğu cəmiyyət və ictimai birliyin fəaliyyətini işıqlandırması, bir növ, ucuz reklam siyasəti ilə məşğul olması;
8. İnternetdən yetərincə yararlanmamaq və ya diaspor mətbu orqanlarımızın əksəriyyətinin internetə çıxışının olmaması;
9. Diaspor mətbu orqanlarımızın olduqca az tirajla yayımlanması;
10. Diaspor cəmiyyət və birliklərimizin ayrı-ayrı mətbu orqanlara bəzən ikili münasibəti;
11. Redaksiya heyətinin bir neçə nəfərdən ibarət olması və bu səbəbdən də mövcud dərgilərin əksəriyyətinin müasir dövrün tələblərinə cavab verməməsi və ya primitiv halda nəşr olunması;
12. Mətbu orqanlar arasında mövzu bölgüsünün düzgün aparılmaması. Belə ki, Şimali Azərbaycandan xarici ölkəyə üz tutanlar öz dərgilərində daha çox Dağlıq Qarabağ probleminə toxunur, Cənubi Azərbaycandan mühacir düşmüş soydaşlarımız isə Gülüstan və Türkmənçay müqavilələri ilə ikiyə bölünmüş Azərbaycanımızın yenidən birləşməsi məsələsini irəli çəkirlər. Bu üzdən bəzi mətbu orqanlarımızda Müstəqil Azərbaycan Respublikası ilə bağlı məlumatlar, bəzilərində isə Cənubi Azərbaycanda yaşanan problemlər əks olunmur;
13. Vətəndə yaşayan soydaşlarımızın nəşrlər barədə məlumatsız olması və ya diaspor mətbu orqanlarımızın Azərbaycan Respublikasında yayımlanmaması;
14. Diaspor mətbuatımızın nəşr olunduğu ölkənin yerli mətbu orqanları ilə əməkdaşlığa meylli olmaması və ya bu əməkdaşlığın istənilən səviyyədə qurulmaması.

Qeyd olunanlar diaspor mətbuatının inkişafında ortaya çıxan problemlərin yalnız bir hissəsidir. Odur ki, bu siyahını bir qədər də

uzatmaq olar. Həmin problemlər yalnız Avropada deyil, dünyanın əksər inkişaf etmiş ölkələrində dərc olunan dərgilərimizin fəaliyyətinin daha kamil bir mərhələyə qədəm qoymasına, mövcud potensial imkandan maksimum yararlanmağa imkan vermir, çətinliklə də olsa, nəşr edilən qəzet və jurnalların qısa zaman ərzində bağlanmasına gətirib çıxarır. Ona görə də həm dövlət, həm qeyri-hökumət təşkilatları, həm də diaspor səviyyəsində bu çatışmazlıqların tezliklə həllinə nail olmaq önəmlidir. Bunun üçün bir sıra həlli vacib məsələlər nəzərdən keçirilməlidir:

1. Diaspor mətbuatımızın maddi problemlərini həll etməklə onların tərtibat və dizayn baxımdan daha uğurlu dərcinə nail olmaq;

2. Xarici ölkələrdə fəaliyyət göstərən ziyalı və intellektli soydaşlarımızın diaspor mətbuatı ilə əməkdaşlığına çalışmaq, bununla da mətbu orqanlarımızın redaksiya heyətini həm say, həm də düşüncə tərzi baxımından zənginləşdirmək;

3. Diaspor mətbuatımızın həm dərc olunduğu ölkənin ayrı-ayrı bölgələrinə, həm də dünyanın müxtəlif ölkələrinə yayılmasını təmin etmək, oxucu auditoriyasını genişləndirmək;

3. Diaspor mətbuatımızın əsas problemlərindən sayılan informasiya qıtlığını aradan qaldırmaq və bu məqsədlə informasiya bazası yaratmaqla xaricdəki soydaşlarımızı ölkəmizdə baş verən hadisələr barədə yetərincə məlumatlandırmaq;

5. Azərbaycan diaspor nümayəndələrinin ölkəmizə müntəzəm gəlişini təmin etməklə onları informasiya və ideoloji mübarizədə, eləcə də mətbuat işinin təşkilində istiqamətləndirmək, xüsusi tapşırıq və tövsiyələr vermək və sair;

6. Diaspor mətbu orqanlarımızın fəaliyyət göstərdikləri ölkələrdə səfirliklərimiz və ya Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınması (Qeydiyyatda qəzet və jurnalların yaranma tarixi, redaksiya heyəti, onların strateji fəaliyyət proqramı, önəm verdiyi mövzular barədə məlumatlar əksini tapmalıdır);

7. Diaspor mətbuatımızla mütəmadi əlaqə saxlamaq, onların maddi-texniki bazasını və yayım coğrafiyasını daha da genişləndirmək;

8. Xüsusi informasiya bazası yaratmaq, həmin bazanı Azərbaycanın milli-mənəvi dəyərlərindən xəbər verən məlumatlarla təmin etmək və məlumatlardan diaspor mətbuatımızın yetərincə yararlanmasına şərait yaratmaq;

9. Diaspor mətbu orqanlarımızın fəaliyyət göstərdiyi ölkələrin iri şəhərlərində, o cümlədən müstəqil Azərbaycan Respublikasında reklam

olunmasını, yayımlanmasını və satışını təmin etmək (Bu işdə yerli KİV-dən, xüsusən də televiziyanın gücündən istifadə etmək önəmlidir);

10. Bu, birbaşa ideoloji iş olduğundan hökumət tərkibində, yaxud Diasporla İş üzrə Dövlət Komitəsinin nəzdində xüsusi olaraq diaspor mətbuatı, onun fəaliyyət metodları ilə məşğul olan şöbəsinin yaradılmasına çalışmaq: şöbə əməkdaşlarının xarici ölkələrdə fəaliyyət göstərən jurnalist soydaşlarımızla görüşünü təmin etmək;

11. Diaspor mətbu orqanlarımızın internetə çıxışını təmin etmək, onların hər biri üçün ayrıca internet səhifəsi yaratmaq və bu saytları KİV-də, tanınmış internet saytlarında nümayiş etdirməklə reklamlarını təmin etmək.

Aparılan araşdırmalar və əldə olunan nəticə Azərbaycan diasporunun təbliğat sahəsində kifayət qədər böyük gücə malik olduğunu söyləməyə əsas verir. Odur ki, bu gücdən maksimum istifadə etməklə və qeyd olunan sahədə müvafiq addımlar atmaqla yalnız informasiya vasitələrinin deyil, ümumilikdə Azərbaycan diasporunun inkişafı və həyata keçirilən ideoloji fəaliyyət strategiyasının daha effektiv şəkildə tətbiq olunması istiqamətində də önəmli addım atmış olarıq.

Dissertasiyanın II fəslində araşdırılan əsas mövzulardan biri də dövlət – diaspor münasibətləridir. Fəslin **“Dövlət-diaspor münasibətlərinin əsas prinsipləri”** adlanan üçüncü yarımfəslində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən diaspor siyasətinin konseptual və düşünülmüş strateji fəaliyyət proqramının əsas istiqamətləri, dövlət siyasətinin mühüm tərkib hissəsi olan diaspor siyasətinin real nəticələri, Azərbaycan diasporunun həmrəyliyinin və təbliğatçılıq istiqamətində aktiv fəaliyyətinin təmin olunmasında dövlətin önəmli rolu, ölkəmizdə keçirilən Dünya Azərbaycanlılarının I, II və III Qurultaylarının əhəmiyyəti və həmin tədbirlərdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin xaricdəki soydaşlarımızın təşkilatlanması istiqamətində qarşıya qoyduğu tapşırıqlar, həlli vacib vəzifələr barədə ətraflı məlumat verilir. Bildirilir ki, ulu öndərin xarici ölkələrə rəsmi səfərləri zamanı soydaşlarımızla görüşməsi, onları vahid proqram, ümummilli məqsəd naminə fəaliyyətə səsləməsi diaspor nümayəndələri arasında əlaqələrin genişlənməsində, onlarda vətənə bağlılıq hissinin daha da artmasında, həmçinin diasporumuzun formalaşmasında önəmli rol oynadı. Fəaliyyətinin ilk günündən diaspor siyasətini dövlət siyasəti səviyyəsinə qaldıran H. Əliyev bununla da, dövlət–diaspor münasibətlərinin təməlini qoydu. Həmçinin qeyd olunur ki, 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayında

iştirak edən ümummilli lider soydaşlarımızın təşkilatlanması üçün bir çox vəzifələrin həllinin vacibliyini də xüsusi vurğulamışdı. O, Azərbaycan icmalarının fəaliyyətini əlaqələndirmək üçün əlahiddə bir dövlət orqanının yaradılması ideyasını irəli sürməklə, bu tarixi missiyanın daha müvəffəqiyyətlə həyata keçirilməsinin konkret yollarını da göştərmişdi: "...İndi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir – biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı – ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar"[1].

2007-ci il martın 9-da Bakıda Dünya Azərbaycan və Türkiyə Diaspor Təşkilatları rəhbərlərinin I Forumunda çıxış edən prezidenti İlham Əliyev isə diaspor təşkilatlarının qarşısına konkret vəzifələr qoydu, onların fəaliyyət prinsiplərini və strategiyasını müəyyənləşdirdi: "Bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkəmizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyası aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə də xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər"[2].

Məhz Azərbaycan dövlətinin diaspor siyasətinə verdiyi önəmin nəticəsidir ki, 2002-ci ilin 5 iyulunda prezident Heydər Əliyev «Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» Fərman (hazırda həmin qurum Diasporla İş üzrə Dövlət Komitəsi adlanır) imzaladı. Həmin qurumun yaradılması ilə diaspor hərəkatının artıq konkret proqram, düşünülmüş siyasət və konseptual

[1] Bayramoğlu A. Azərbaycan mühacirət mətbuatına dair mühazirələr (1920-1990-cı illər): Dərs vəsaiti. Bakı: BDU, 2004.
[2] "Dirçəliş XXI əsr" jurnalı, Bakı, 2007-2008-ci il, № 118-119, s. 192-194.

fəaliyyət strategiyası əsasında ideoloji mübarizəsinə start verildi, xaricdəki soydaşlarımızın təşkilatlanması və həmrəyliyin təmin olunması istiqamətində kompleks addımlar atıldı. Proses bu gün də davam edir və müasir dövr prezident İlham Əliyevin diaspor hərəkatında qarşıya qoyduğu əsas məqsəd müdafiədən hücuma keçmək, aktiv təbliğatçılıq işi aparmaqla Azərbaycan həqiqətlərini olduğu kimi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır. Odur ki, müasir dövrdə dövlət – diaspor münasibətlərinin daha uğurlu və məqsədyönlü şəkildə qurulması üçün bir sıra vacib prinsiplər rəhbər tutulur. Həmin prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Təşkilatı sahədə:**

- Avropa Azərbaycanlıları Konqresinin III Qurultayının keçirilməsi;
- Kanada Azərbaycan Assosiasiyaları Assambleyasının III Qurultayının keçirilməsi;
- Azərbaycanlıların kompakt yaşadığı, lakin diaspor təşkilatlarının mövcud olmadığı regionlarda yeni icma və birliklərin təsis edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi;
- Azərbaycan icmalarının fəaliyyətinin koordinasiya edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi.

**Lobbi quruculuğu və digər xalqların diaspor təşkilatları ilə əlaqələr sahəsində:**

- "Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası"nda nəzərdə tutulmuş vəzifələrin həyata keçirilməsi üçün səylərin gücləndirilməsi;
- "Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası"nın 12 və 16-cı bəndlərinə uyğun olaraq, "Axitsa türklərinin deportasiyası ilə bağlı yaranmış problemlərin həllində Azərbaycan və türk diasporlarının rolu" mövzusunda beynəlxalq elmi-praktik konfransın təşkili;
- Xarici ölkələrin parlamentlərində və hökumətlərində təmsil olunan siyasətçilər, ictimai xadimlərlə əlaqələrin qurulması işinin davam etdirlməsi;
- Azərbaycan və türk diaspor təşkilatlarının III Forumunun keçirilməsi.

**İnsan hüquq və azadlıqlarının qorunması, habelə cəmiyyətə inteqrasiyası sahəsində:**

- Xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması sahəsində vəziyyətin öyrənilməsi işinin davam etdirilməsi;

- Rusiya Federasiyasına miqrasiya etmiş soydaşlarımızın, eləcə də Rusiya Federasiyasının Dağıstan Respublikasında yaşayan azərbaycanlıların problemlərinin diqqət mərkəzində saxlanılması;

- Gürcüstan azərbaycanlılarının Gürcüstan cəmiyyətinə inteqrasiyasına xidmət edən tədbirlərin həyata keçirilməsinə dəstək verilməsi;

- Azərbaycanlıların yaşadığı ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması məqsədilə müvafiq tədbirlərin görülməsi, habelə bu prosesin ideoloji əsaslarını müəyyənləşdirən sənəd layihəsinin hazırlanması.

**Təbliğat sahəsində:**

- Azərbaycan xalqına qarşı törədilmiş terror və soyqırım aktları ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasını təmin etmək məqsədilə etiraz aksiyalarının, foto və rəsm sərgilərinin, elmi-praktik konfransların təşkili işinin davam etdirilməsi, bu barədə filmlərin xarici televiziyalarda nümayişinə nail olunması;

- Qondarma "erməni soyqırımı" iddialarını ifşa edən təbliğati işlərin həyata keçirilməsi;

- Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

- Xarici KİV-lərdə Azərbaycan həqiqətlərinin yayılması ilə bağlı tədbirlərin davam etdirilməsi və Azərbaycan həqiqətlərini təbliğ edən yeni kütləvi informasiya vasitələrinin təsis olunması;

- Diaspor quruculuğu və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində müasir informasiya texnologiyalarının daha geniş miqyasda tətbiqi.

**Mədəni irsimizin təbliği sahəsində:**

- Azərbaycanın mədəni irsini təbliğ edən mədəni-kütləvi tədbirlərin keçirilməsi;

- Avropa ölkələrinin birində xaricdə yaşayan azərbaycanlı rəssamların sərgisinin təşkili;

- Müxtəlif ölkələrdə fəaliyyət göstərən muzeylərdə Azərbaycan guşələrinin açılması;

- Azərbaycanlıların kompakt yaşadığı regionlarda fəaliyyət göstərən "Həftə sonu" məktəblərinin maddi-texniki bazasının gücləndirilməsinə yardım göstərilməsi, habelə yeni məktəblərin yaradılması.

Qeyd olunan prinsiplərin uğurla reallaşması üçün Azərbaycan Respublikası diaspor siyasəti ilə yanaşı, dünya dövlətləri ilə hərtərəfli əlaqələr qurmaq istiqamətində də əməli tədbirlər planı həyata keçirir.

Bu fəsildə həmçinin diasporlaşma prosesini daha aydın şəkildə qavramaq, dövlət-diaspor münasibətlərinin düzgün elmi təhlilni aparmaq üçün diasporun növləri də nəzərdən keçirilir. Bildirilir ki, diasporlar qədimliyinə görə üç qrupa bölünür. Bunlar:

- Qədim və orta yaranma tarixinə malik diaspor (Yəhudi, yunan, Çin və Hindistan);
- Nisbətən gənc diaspor (Türkiyə, Polşa, Əlcəzair, Mərakeş, Koreya, Yaponiya və s.);
- Müasir diaspor (Fars körfəzi, Ərəbistan yarımadası kimi ərazilərdə yaranan diasporlar).

Diasporlar həmçinin yaranma şəraitinə və fəaliyyət strategiyasına görə də fərqlənir:

- Faciəvi diasporlar (Bunlar, uzunmüddətli siyasi çəkişmələrin yekunu olaraq yaranan və çoxsaylı tələfatla müşayiət olunan diasporlardır);
- Çalışqan diasporlar (Bura əcnəbi ölkələrdə müxtəlif fiziki işlərdə çalışan diasporlar qrupu daxildir);
- Ticarət diasporu (Bu, adından da göründüyü kimi kommersiya niyyətli diaspordur);
- İmperiya diasporu (Əsas məqsəd istər siyasi, istər iqtisadi, istərsə də ideoloji sahədə ldierliyi ələ almaq və birinciliyi qorumaq olan bu cür diasporlar yarandığı ilk gündən imperiya siyasəti həyata keçirməklə nəinki fəaliyyət göstərdiyi ölkəni, ümumiyyətlə digər diasporları da öz təsir dairəsinə salmağa çalışır).

Diasporları yaranma şəraitinə görə isə iki kateqoriyaya bölmək olar:

- Siyasi yerdəyişmələrdən doğan və daha çox məcburiyyət üzündən xaricdə məskunlaşmaqla yaranan diasporlar;
- Kataklizm diasporu (Kataklizmin yunanca mənası “daşqın”, “sel” deməkdir. Yer kürəsində atmosfer və vulkanik proseslərin təsiri nəticəsində üzvü maddələrin xarakterinin və özünəməxsusluğunun kəskin şəkildə dəyişməsi prosesi kataklizm adlanır).

Dissertasiyanın III fəsli **“Azərbaycan diasporu və mətbuatının fəaliyyəti ideoloji aspektdə”** adlanır. İki bölümdən ibarət olan bu fəsil ümumilikdə milli ideologiyanın formalaşması və inkişafında istər diasporun, istərsə də diaspor mətbuatının əhəmiyyətli rolundan, bu istiqamətdə qarşıda duran vəzifələrdən, istifadə edilən fəaliyyət mexanizmlərdən, milli həmrəylik anlayışının başlıca komponentlərindən bəhs edir. Bildirilir ki, ideoloji dəyərlərə söykənən milli həmrəylik anlayışı özündə bir sıra vacib komponentləri birləşdirir. Fəslin **“Azərbaycan diasporunun formalaşmasında milli ideologiyanın rolu”** adlanan birinci

yarımfəslində həmin komponentlər haqqında sistemləşdirilmiş şəkildə ətraflı məlumat verilir:

1. Ümumi tarixi Vətən. Bu komponent milli həmrəylik anlayışının ortaya çıxmasının ilkin şərtidir. Tarixi Vətən milli həmrəyliyin stimulverici amili, maddi və mənəvi bazası kimi çıxış edir;

2. Milli həmrəyliyin mühüm bir komponenti milli şüurdur. Məlum olduğu kimi, milli şüurun inkişafı bütövlükdə ictimai-iqtisadi formasiyanın, tarixi proseslərin və real situasiyanın təsiri ilə baş verir. Tarixi Vətənindən kənarda yaşayan insanlar cəmiyyətə inteqrasiya prosesini keçmək üçün eyni düşüncəli fərdlərin dəstəyinə daim ehtiyac duyur. Bu ehtiyac, yeni cəmiyyətə düşmüş insanla həmin cəmiyyətin şüur səviyyəsindəki fərqlərin təzahürü kimi ortaya çıxır. Beləliklə, həmin fərd özü kimi düşünənləri axtarmaq məcburiyyətində qalır və ondan əvvəl bu ölkədə yaşamış insanlarla əlaqələr qurur, təcrübəsini öyrənir, qarşılaşdığı çətinliklərin həllində onların dəstəyindən yararlanmağa çalışır. Tədqiqatçılar hesab edirlər ki, miqrantların belə davranışı sırf milli şüur hadisəsidir;

3. Milli maraqlar. Milli həmrəyliyin mövcud olması üçün müxtəlif insanların və insan qruplarının ortaq maraqlar ətrafında birləşməsi əsas şərtlərdəndir. Bu ortaq maraqlar məhz milli maraqlarda birləşir. Milli maraqlar cəmiyyətin ümumi inkişaf səviyyəsi, sosial-iqtisadi durumu, ölkənin (immiqrantın vətəni) geosiyasi mövqeyi və beynəlxalq iqtisadi münasibətlər sistemində tutduğu yerlə müəyyənləşir. Milli maraqlar hər bir millətin özünüdərkinin və özünüidentifikasiyanın elə bir müasir formasıdır ki, bu zaman onun daimi mənafelərinin digər millətlərin daimi mənafeləri ilə uzlaşdırılması əsas amil kimi çıxış edir;

4. Milli həmrəyliyin mühüm komponentlərindən olan milli ideologiyanın yaranması tarixi proses olub, çox uzun zaman məsafəsi tələb edən, mürəkkəb sosial-siyasi hadisədir. Milli ideologiya amorf bir anlayış deyildir, lakin o, zamanın və şəraitin tələblərinə uyğun olaraq daim dəyişir və təkmilləşir. Milli ideologiya cəmiyyətin real həyat tərzi ilə insanların arzularında öz ifadəsini tapan ideal həyat şəraiti arasında mükəmməl bir harmoniya yaradır;

Bu mənada, milli həmrəyliyin təmin olunmasında milli ideologiyanın əsas funksiyası insanları ümumi məqsəd ətrafında birləşdirməyə qadir ideyalar sistemini təqdim etməkdir. İdeologiya olmadan eyni tarixi Vətən, ortaq milli maraqlara malik insanları vahid məqsədlər ətrafında birləşdirmək mümkün deyildir. İnsanlar onların birləşdirilməsini şərtləndirən amillərin reallığına inanmalı və bu reallığı dərk etməlidir. Milli ideologiya məhz bu reallığı dərk etmək imkanlarını formalaşdırır, insanlar

arasında mənəvi, psixoloji, etnik bağlara əsaslanaraq ümumi mənafelərini özündə birləşdirən ideyalar sistemini təklif edir[1].

Dissertasiyada qeyd olunur ki, milli ideologiya üç mühüm suala cavab verməlidir: biz (yəni millət) haradan gəlmişik (tarixi kökümüz nədir), haradayıq (hansı tarixi inkişaf mərhələsindəyik) və haraya gedirik (gələcəyimizi necə qurmalıyıq). Milli ideologiyanın əsas və ən ümdə vəzifəsi hər bir cəmiyyət üçün vacib olan bu üç suala cavab tapmasındadır. Milli ideologiyanın rasionallığı da məhz bu suallara cavab vermək imkanları ilə ölçülür.

III fəslin **"Milli dövlətçiliyin möhkəmləndirilməsində diaspor mətbuatının rolu, əhəmiyyəti və əsas prinsipləri"** adlanan ikinci bölümündə ideoloji fəaliyyət prinsiplərinin düzgün tətbiqi, təbliğatçılıq işinin düşünülmüş proqram əsasında aparılması, eləcə də dövlətin rəhbər tutduğu və müasir dövrün qlobal ictimai-siyasi münasibətlər konsepsiyasının tələblərinə uyğun gələn ideoloji mexanizmin konkret nədən ibarət olduğunonun soydaşlarımıza hərtərəfli izah edilməsi baxımından diaspor mətbuatının əhəmiyyətli roluna toxunulur və bu gücün potensial imkanlarından maksimum istifadənin effektivliyindən danışılır. Qeyd olunur ki, diaspor mətbuatının ideoloji fəaliyyət prinsiplərini bu cür qruplaşdırmaq olar:

1. Azərbaycanın müstəqilliyinin və azərbaycançılıq ideologiyasının təbliği;
2. Dağlıq Qarabağ problemi və torpaqların işğaldan azad olunması uğrunda mübarizə;
3. Cənubi Azərbaycan mövzusu və İran hökumətinin soydaşlarımıza qarşı yürütdüyü məkrli siyasətin ifşası;
4. 20 Yanvar, 26 Fevral, Xocalı soyqırımlarını obyektiv şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq;
5. Müstəqil Azərbaycan Respublikasının rəhbər tutduğu ideoloji siyasəti xaricdəki soydaşlarımız arasında yaymaq, bununla da Azərbaycan diasporunun vahid konsepsiya və proqram əsasında fəaliyyətini təmin etmək;
6. Azərbaycan tarixinin və mədəniyyətinin təbliği;
7. Dünyanın aparıcı kütləvi informasiya vasitələri ilə münasibətlər yaratmaqla onların Azərbaycan haqqında məlumatlar verməsinə nail olmaq.

Ümumilikdə isə fəaliyyətinin ilk illərində soydaşlarımızın yaratdığı qəzet və jurnallar, internet saytları əsasən primitiv xarakter daşısa da,

---

[1] Ölkəm jurnalı. Bakı, 2008, № 3, s. 24-29.

zaman keçdikcə bu sahədə əldə olunan uğurlar, mətbu orqanlarımızın yayım coğrafiyasını, keyfiyyət və kəmiyyət göstəricilərini, informasiya bazasını daha da zənginləşdirməsi gələcəyə nikbinliklə baxmağa əsas verir. Nəzərə almaq lazımdır ki, bu gün Azərbaycan diasporu yalnız mətbu orqanlar, cəmiyyət və ictimai birliklər yaratmaqla kifayətlənmir. Bura artıq dünyanın müxtəlif ölkələrində soydaşlarımız tərəfindən əsası qoyulan və kifayət qədər aktiv təbliğatçılıq işi aparan televiziya və radioların fəaliyyəti də daxildir. Həmin informasiya vasitələri haqqında da dissertasiyada ətraflı məlumat verilir. Onlardan Danimarkada "Azərbaycan" radiosu, Kanadada "Azərbaycanın səsi" radiosu, İsveçrədə "Azərbaycanın səsi" radiosu, Fransada "Azərbaycanın səsi" radiosu, ABŞ-da "Günaz TV", Kanadada "AzCAN TV", "Heydərbaba TV" televiziyalarını misal göstərmək olar.

Beləliklə, bu gün diaspor təşkilatları dünya azərbaycanlılarının həmrəyliyinin informasiya təminatı istiqamətində ana dilində və ya yaşadıqları ölkələrin dövlət dilində kütləvi informasiya vasitələri təsis etmək, milli icma üzvləri və yerli əhali arasında təbliğat və maarifçilik işi aparmaq hüququna malikdirlər. Odur ki, azərbaycanlı icmaların fəaliyyət göstərdikləri ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələrinin yaxşılaşdırması, yeni müstəqil qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması prosesi bundan sonra da məqsədəuyğun və sistemli şəkildə davam etdirilməli, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırlmasında fəal iştirak edən və Azərbaycan lobbisinin təşkilinə yardım göstərə biləcək alim, siyasətçi və jurnalistlərlə, soydaşlarımızın yaşadıqları ölkələrin və digər dövlətlərin qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə sıx əlaqələr qurulmalı, onlarla məqsədyönlü iş aparılmalıdır[1]. Yalnız bu halda Avropada güclü diaspora və diaspor mətbuatına sahib olmaq olar.

Dissertasiyanın "**Nəticə**" bölümündə isə müstəqillik dövründə Avropada dərc olunan diaspor mətbu orqanlarımız artıq ayrı-ayrılıqda deyil, qruplaşdırılıraraq təhlil olunur, dərgilərimizi narahat edən problemlər və həmin problemlərdən çıxış yolları ümumiləşdirilərək, sistemli şəkildə göstərilir, konkret təkliflər verilir. Xüsusi olaraq bildirilir ki, Azərbaycan diasporunun formalaşması və inkişafında müasir innovativ vasitələrdən, əsasən də internetin yaratdığı zəngin imkanlardan geniş şəkildə istifadə olunmalıdır. İnternet hazırda dünya azərbaycanlılarının milli birliyi və mütəşəkkilliyi qarşısında ən ciddi problemləri tez bir zamanda və effektiv

[1] Dünya azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat. Bakı, 2008, : 17-20 dekabr , s. 29.

şəkildə aradan qaldırmaq, qarşılıqlı və operativ informasiya mübadiləsi yaratmaq, Azərbaycan haqqında yetərincə dolğun məlumat toplamaq, hətta bəzən eyni şəhərdə yaşayan, lakin bir – birini tanımayan, bir – birinin fəaliyyətindən xəbərsiz olan soydaşlarımızı tanıtmaq, onların heç yerə getmədən, heç bir vəsait xərcləmədən sosial şəbəkələr vasitəsilə müntəzəm görüşünü təşkil etmək mümkündür. İnternetin eyni zamanda dünya azərbaycanlıları və diaspor təşkilatları haqqında zəruri məlumatları özündə əks etdirəcək xüsusi Vebportalın yaradılması baxımından da faydası kifayət qədər böyükdür.

Bundan əlavə, internet dünya azərbaycanlılarının gənc nəslinin təhsil problemini həll etmək, onları Vətənə daha da bağlamaq məqsədi ilə Virtual Azərbaycan Orta Məktəbinin yaradılması üçün əlverilişli məkandır. Etiraf olunmalıdır ki, bu gün müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın böyük əksəriyyəti övladlarının Azərbaycan dilində təhsil almasını ürəkdən arzulasa da, bu, heç də hamıya nəsib olmur. Bir sıra ölkələrdə azərbaycanlıların milli azlıq olaraq öz dilində məktəblər açmasına icazə verilsə də, milli kadrların və lazımi maddi-texniki bazanın yoxluğu bu niyyəti gerçəkləşdirməyə imkan vermir. Bəzən ana dilində açılan “bazar günü məktəbləri”ndə dərsliklərin və əyani tədris vəsaitlərinin əldə edilməsi ilə bağlı da ciddi problemlər meydana çıxır. Halbuki, hazırkı informasiya əsrində problemin daha çevik, səmərəli həlli yolu Virtual Azərbaycan Orta Məktəbinin yaradılmasıdır.

Üçüncü əsas problem müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar arasında müvafiq xarici dillərin güclü təsiri altında fərqli terminaloji mühitin formalaşmasıdır. Dilimizin assimilyasiyadan qorunması üçün Azərbaycan terminlərini özündə toplayan xüsusi vebportalın yaradılması da mövcud problemlərin həlli baxımından son dərəcə vacibdir. Belə olduğu halda müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar ana dilinin təmizliyini və saflığını qoruyub saxlaya biləcəklər.

Dünya azərbaycanlılarının həmrəyliyi istiqamətində mövcud olan əsas problemlərdən biri də transliterasiya ilə bağlıdır. Çünki müxtəlif ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan dilində danışsalar da, obyektiv və subyektiv səbəblərdən müxtəlif əlifbalardan istifadə edirlər. Məsələn, İranda yaşayan azərbaycanlılar bizim ölkədə nəşr olunan informasiyaları, bizlər də orada dərc olunan materialları oxuya bilmirik. Bunun da nəticəsində həm yazılı mənbələrdə - kitab, qəzet və jurnallarda, həm də elektron resurslarda - veb saytlarda, kompakt disklərdə olan məlumatlar müxtəlif qrafikalarda olduğuna görə dünya azərbaycanlılarının materiallardan geniş istifadəsi çox çətinləşir. Faktiki olaraq milli

informasiya məkanı bu qrafikalar (kodlar) vasitəsilə hissələrə bölünür. Ona görə də bütün dünya azərbaycanlıları arasında qrafika problemini aradan qaldırmaqla ümumi informasiya mühitini yaratmaq üçün müxtəlif dillərin əlifbasında olan hərflərin qarşılıqlı çevrilməsini – konvertasiyasını həyata keçirən xüsusi proqram təminatı vasitələrinin hazırlanması aktual məsələlərdən biri kimi qarşıda durur. Məlumdur ki, kağız üzərində olan məlumatların bir qrafikadan digərinə keçidi praktiki olaraq həddən çox çətindir. İnformasiya texnologiyalarının və dilçilərin bu işi həyata keçirməsi üçün ilk növbədə lazım olan bütün əlifbalararası, iki istiqamətli çevirmə cədvəlləri milli və beynəlxalq standartlaşdırma qurumları tərəfindən təsdiq olunmalıdır[1].

Qeyd olunan prinsipləri rəhbər tutmaqla müasir dövrün tələblərinə cavab verən, təsiredici nüfuza malik, ideoloji mübarizədə önəmli rolu ilə seçilən diaspor mətbuatı yaratmaq və onun fəaliyyətini müvafiq tələblərə uyğun şəkildə qurmaq mümkündür. Lakin bu o demək deyil ki, müasir Azərbaycan diasporu zəifdir və ya təbliğatçılıq istiqamətində qarşıya qoyulan hədəflərə çata, konkret nəticə əldə edə bilmir. Aparılan araşdırmalar və gəlinən nəticələr də onu deməyə əsas veriri ki, bu gün Azərbaycan diasporu və mətbuatı dünyanın müxtəlif ölkələrində, xüsusən də Avropada aktiv fəaliyyət göstərir, Vətənin tanıdılması, təbliğ olunması istiqamətində, informasiya müharibəsində öz sözünü deyir. Amma potensial imkanlar daha böyükdür və bu istiqamətdə mövcud problemləri həll etməklə güclü diaspor mətbuatı yaratmaq, xaricdəki mətbu orqanlarımızın müasir tələblərə uyğun peşəkar fəaliyyətini təmin etmək, onların yayım coğrafiyasını genişləndirmək mümkündür. Yalnız bu halda güclü diaspor mətbuatından danışmaq, həmin mətbu orqanların potensial təsir qüvvəsi, təbliğat mexanizmi olduğunu söyləmək və onlardan diaspor quruculuğu istiqamətində səmərəli şəkildə istifadə etmək olar. Bu isə həm Azərbaycan dövləti, həm də diasporu üçün xüsusi önəm kəsb edən strateji məsələlərdən sayılır. Odur ki, dissertasiyada diaspor mətbuatının müasir dövrün tələbləri ilə ayaqlaşması, yaradıcılıq imkanlarını, mövzu dairəsinin artırması, keyfiyyətli işinin təşkili üçün konkret təkliflər də verilir. Bildirilir ki, bu istiqamətdə bütün mümkün vasitələrdən, o cümlədən istər diasporun, istərsə də diaspor mətbuatının inkişafında mühüm önəm kəsb edən birləşdirici amillərdən istifadə olunmalıdır. Bu amillər isə aşağıdakılardır:

---

[1] Əliquliyev R. Virtual dünya diaspor quruculuğu işinə yeni rasional yanaşma tələb edir, «Azərbaycan» qəzeti, 31 dekabr 2008-ci il, s. 8

- Vahid milli mədəniyyət;
- Müstəqil Azərbaycan və dövlətçilik;
- Tarix, dil, mədəniyyət və soykökü birliyi;
- Demokratiya və insan haqları uğrunda mübarizə, eləcə də milli zülmə və avtoritarizmə qarşı müqavimət;
- Milli faciəmizin məhz öz faciələri kimi qavranılması, həmrəyliyin açıq şəkildə ifadə olunması;
- Azərbaycan dövlətinin mənəvi himayədarlığına daimi ehtiyac.

Yalnız bu amillərdən düşünülmüş və sistemli şəkildə yararlanmaqla və bu istiqamətdə mövcud problemləri həll etməklə güclü diaspora və diaspor mətbuatına sahib olmaq mümkündür. Bu isə hər bir dövlət üçün xüsusi önəm daşıyan faktordur. Təsadüfi deyil ki, Azərbaycan Respublikası xaricdə öz diasporunun formalaşmasına çalışdığı kimi, dünya ölkələri və ya müxtəlif azsaylı xalqlar da zaman – zaman Azərbaycanda cəmiyyət və ictimai birliklər yaradıb, mətbu orqanlar nəşr etdiriblər və proses bu gün də davam edir.

Mütəxəssislərin fikrincə, Azərbaycanda əcnəbi dərgilərin nəşr olunması prosesi XIX əsrin ikinci yarısından başlayıb: XX əsrin birinci onilliyində Azərbaycanda rus dilində 70-dən artıq qəzet və jurnal nəşr edilirdi. Onlardan "Бакинский листок" (Bakı vərəqi), "Бакинские известия" (Bakı xəbərləri), "Каспий" (Xəzər), "Бакинский торгово-промышленный листок" (Bakı ticarət– sənaye vərəqi), "Бакинские губернские ведомости" (Bakı quberniya xəbərləri), "Баку" (Bakı), "Духовный христианин" (Mənəvi xristian), "Бакинская газета" (Bakı qəzeti), "Бакинская жизнь" (Bakı həyatı), "Бакинский голос" (Bakı səsi), "Бакинский досуг" (Bakının asudə vaxtı), "Бакинский рабочий" (Bakı fəhləsi), "Бакинская неделя" (Bakı həftəsi), "Бакинский день" (Bakı günü), "Голос Баку" (Bakının səsi), "Бакинское эхо" (Bakının əks–sədası), "Бакинская правда" (Bakı həqiqəti), "Бакинская звезда" (Bakı ulduzu), "Наше слово" (Bizim sözümüz), "Шушинская жизнь" (Şuşa həyatı), "Свободное слово" (Azad söz), "Единая Россия" (Vahid Rusiya), "Россия" (Rusiya), "Рабочая путь" (Fəhlə yolu) və s. qəzetləri misal göstərmək olar.

XX əsrin əvvəllərində Azərbaycanda erməni dilində də xeyli mətbu orqanlar nəşr edilirdi: "Aykakan aşxar", "Azqaqrakan andes", "Banvori dzayn", "Bari lur", "Kuraknori tert", "Motsak", "Koç devet", "Bakvi dzafi", "Erand", "Kiraki", "Lusadenin", "Tatron ev erajşutyun", "Arev", "Çil", "Şaviq", "Paykar", "Faylak", "Aşxasanki droşak", "Berasnund", "Ozer", "Kayler", "Netsuk", "Aparaj", "Aşxatvorn dzaym", "Banvori

Xosk”, “Zeraçnund”, “Mer dzaym”, “Terekati”, “Sepor”, “Artsax”, “Karabaxi Suranc”, “Nor Kyank”.

Həmin dövrdə Azərbaycanda həmçinin gürcü dilində “Çkaro”, “Çveçi çkaro”, hətta polyakların “Faris” adlı qəzeti də nəşr olunurdu.

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsindən sonra da milli azlıqlar, eləcə də əcnəbi ölkələrin diaspor təşkilatları ölkəmizdə nəşrləri davam etdirmişlər. Onlardan “Oko” (rus dilində), “Tolışi sədo” (talış dilində), “Denge kurd” (kürd dilində), “Samur” (ləzgi dilində), “Şəlalə” (Qax rayonunda nəşr olunur, gürcü dilində də yazılar çap edilir) və s. dərgiləri misal göstərmək olar[1].

Zaman keçdikcə Azərbaycanda yaşayan diaspor təşkilatları daha aktiv ictimai-siyasi fəaliyyət göstərməklə yeni-yeni mətbu orqanlar yaradır və güclü potensial təsir qüvvəsinə çevrilirlər. Əlbəttə, bu proses ilk növbədə ölkəmizin beynəlxalq sferada mövqeyi, nüfuz dairəsi ilə ölçülür. Belə ki, dünya miqyasında layiqincə tanınması, beynəlxalq münasibətlər sistemində çəkisinin artması, iqtisadi və sosial cəhətdən inkişaf etməsi səbəbindən Azərbaycan Respublikası bu gün çoxsaylı miqrantların maraq dairəsindədir. Yeni adət-ənənələrin, mədəniyyətin, ictimai-siyasi baxışlar sisteminin daşıyıcısı olan gəlmələr yerli şəraitə uyğunlaşmaq, burda özlərinə əsaslı dəstək yaratmaq və ideoloji işi uğurla həyata keçirmək üçün müxtəlif cəmiyyət, ictimai birlik və ocaqlar təşkil etməklə yanaşı, mətbu orqanların nəşrinə də nail olmağa çalışırlar. Uzun illər sınaqdan çıxmış bu tarixi təcrübədən dünyanın demək olar ki, hər bir ölkəsini təmsil etmiş diaspor təşkilatları yararlanırlar. Bu mənada, Azərbaycan diaporu da çalışır ki, dünya siyasətində baş verən proseslərdən geri qalmasın. Odur ki, qlobal siyasətin mövcud tələblərinə cavab vermək, beynəlxalq ideoloji müharibədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi olaraq qeyd etdiyi kimi, müdafiə taktikasından hücum taktikasına keçmək və bu sahədə konkret nəticələr əldə etmək üçün diaspor mətbuatının formalaşması və inkişafı istiqamətində əməli işlərin görülməsi zəruridir.

Dissertasiyada belə nəticəyə gəlinir ki, dünyanın siyasi kursunun müəyyənləşməsində böyük pay sahibi olan Avropada güclü diaspor mətbuatının yaradılması, arzuolunan diaspor hərəkatının təşkili, effektli təbliğat aparatının işə düşməsi ilə ideoloji prosesin düşünülmüş və vahid konsepsiya çərçivəsində qurulması baxımından Azərbaycan diasporunun

---

[1] Yaqublu N. Azərbaycanda yaşayan milli azlıqların nəşrləri, Bakı : Elm və təhsil, 2010, s. 96

yetərincə gücü, intellektual və maddi imkanları var. Lakin bu imkandan ilk növbədə dəyişən qlobal münasibətlər sisteminin mövcud tələblərini nəzərə alaraq yararlanmaq, başqa sözlə, müasir dövrlə ayaqlaşmaq, müasir ideoloji təsir mexanizmlərinə adekvat cavab vermək, yeni metodlardan və sistemli fəaliyyət proqramlarından istifadə etmək, eyni zamanda ictimai-siyasi münasibətlər sistemində baş verən hadisələrə operativ reaksiya vermək önəmlidir.

Əldə olunan nəticə həm də ondan ibarətdir ki, beynəlxalq ideoloji və informasiya müharibəsində konkret nəticələr əldə etmək üçün diaspor mətbuatının formalaşması və inkişafı istiqamətində qazanılan uğurlarla kifayətlənmək olmaz. Yeni təfəkkür və innovativ texnologiyalara əsaslanmaqla daha effektiv, təsirli və baş verənlərə operativ reaksiyası ilə fərqlənən təbliğat mexanizminin qurulması mütləqdir və bu mexanizmin ilk növbədə dünyanın siyasi kursunun müəyyənləşməsində böyük pay sahibi olan Avropada həyata keçirilməsi, qitə ölkələrində güclü, vahid konsepsiya əsasında çalışan diaspor mətbuatının yaradılması həm də arzuolunan diaspor hərəkatının təşkili baxımından önəmlidir. Çünki diaspor hərəkatını mətbuatsız, mətbuatı isə ideologiyasız təsəvvür etmək mümkün olmadığı kimi hər üç fəaliyyət istiqamətini ayrı-ayrılıqda inkişaf etdirmək də mümkün deyil.

## Tədqiqatın əsas elmi nəticələri aşağıdakı əsərlərdə əks olunmuşdur:

**I. Kitab:**

1. Avropada Azərbaycan diasporu: reallıqlar və perspektivlər, Bakı, "Mütərcim", 2013, 312 s.

**II. AAK tərəfindən tövsiyə edilən yerli nəşrlərdə dərc olunan məqalələr:**

1. Almaniyada Azərbaycan diaspor mətbuatı ("Ana dili", "Azərbaycanın səsi", "Savalan", "Qaynarca" və "Ocaq"), "Dil və Ədəbiyyat" Beynəlxalq Elmi-Nəzəri Jurnalı, ISSN 2218-7588, №2 (78), 2011, s.343-346
2. Avropada mühacirət mətbu orqanları: onların proqramı, mövzusu, məqsəd və vəzifələri, "Humanitar Elmlərin Öyrənilməsinin aktual problemləri", ISSN 2221-8432, № 2, 2012, s. 310-314

3. Avropada Azərbaycan diasporunun yaranma tarixi, "Dil və Ədəbiyyat" Beynəlxalq Elmi-Nəzəri Jurnalı, ISSN 2218-7588, №5 (76), 2010, s.330-332

4. Avropada Azərbaycan diasporunun yaranmasını zəruri edən ictimai-siyasi mühit və tarixi hadisələr, diasporun formalaşma mərhələləri, "Dil və Ədəbiyyat" Beynəlxalq Elmi-Nəzəri Jurnalı, ISSN 2218-7588, №1 (77), 2011, s.286-289

5. Azərbaycan diasporunun Almaniyada ideoloji fəaliyyəti: problemlər və perspektivlər, "Journal of Qafqaz University", ISSN 1302-6763, № 31, 2011, s. 124-132

6. Azərbaycan-Türkiyə dostluğunun diasporumuzun formalaşması baxımından əhəmiyyəti, Gəncə Dövlət Universitetinin "Elmi Xəbərləri", № 1, 2011, s. 66-70

7. Belçika və İspaniyada dərc olunan diaspor mətbu orqanlarımız, onların fəaliyyət strategiyası və milli dəyərlərin formalaşmasında rolu, "Filologiya məsələləri", ISSN 2224-9257, №7, 2012, s.381-385

8. Diaspor mətbu orqanlarının milli ideologiyanın formalaşması və inkişafında rolu, ("Vətən çağırır", "АЗЕРРОС Азербайджанцы России", "Голос Азербайджана", Азербайджан", "Азербайджанский конгресс") "Dil və Ədəbiyyat" Beynəlxalq Elmi-Nəzəri Jurnalı, ISSN 2219-5513, №3 (83), 2012, s.305-307

9. Diasporla əlaqələr, dövlət-diaspor münasibətləri, Naxçıvan Milli Elmlər Akademiyasının "Elmi Xəbərləri", ISSN 2218-4783, cild 8, №1, 2012, s.68-73

10. İdeologiya məsələləri, milli ideologiyanın formalaşmasında diaspor mətbuatının rolu, "Filologiya məsələləri", ISSN 0704-6006, №3, 2011, s.248-253

11. Qlobal informasiyalı cəmiyyətdə Azərbaycan diaspora mətbuatı, "Qarapapaqlar", ISSN 1987-6769, №3(67), mart 2013, s. 14-19 (Gürcüstan)

12. Milli ideologiyanın başlıca komponentləri, azərbaycançılıq ideologiyasının yaranma tarixi, Azərbaycan Dillər Universitetinin "Elmi Xəbərləri", №1, 2013, s. 180-184

13. Müasir dövr Azərbaycan Respublikasının diaspor quruculuğu istiqamətində fəaliyyəti və rəhbər tutduğu əsas prinsiplər, "Filologiya məsələləri", ISSN 0704-6006, №2, 2011, s.324-330

14. Müasir dövr diaspor mətbu orqanlarını narahat edən problemlər və həmin problemlərin həlli yolları, "Journal of Qafqaz University", ISSN 1302-6763, № 34, 2012, s.58-64

15. Müasir dövr Böyük Britaniyada Azərbaycan diasporu, “Filologiya məsələləri”, ISSN 0704-6006, №7, 2011, s.342-348

16. Müasir dövr Avropa ölkələrində dərc olunan diaspor mətbu orqanlarımızda dil problemi, “Filologiya məsələləri”, ISSN 2224-9257, №3, 2012, s.205-211

17. Müasir dövr Fransada Azərbaycan diasporu, Sumqayıt Dövlət Unversitetinin “Elmi Xəbərlər” bölməsi, ISSN 1680-1245, cild 8, №1, 2012, s.63-66

18. Müasir dövr Avropada diaspor mətbu orqanları (“Xəbər euro news”, “Dədə Qorqud”, “Dünya azərbaycanlıları” dərgiləri), Sumqayıt Dövlət Unversitetinin “Elmi Xəbərlər” bölməsi, ISSN 1680-1245, cild 8, №4, 2012, s.33-37

19. Müstəqillik illərində Türkiyə, Böyük Britaniya və Fransada Azərbaycan diasporunun mətbu orqanları(1991-2010), “Journal of Qafqaz University”, ISSN 1302-6763, № 33, 2012, s.107-114

20. Müstəqillik illərində Almaniyada dərc olunan diaspor mətbu orqanlarımız, onların fəaliyyət strategiyası və yayım coğrafiyası, “Humanitar Elmlərin Öyrənilməsinin aktual problemləri”, ISSN 2221-8432, № 2, 2011, s. 86-93

**III. AAK tərəfindən tövsiyə edilən xarici nəşrlərdə dərc olunan məqalələr:**

1.Changes and continuty in the concept of Diaspora: Theoretical debates and perspectives in the post – Soviet academia and media. American Journal of International Law, Current impact factor 1.05. IMPACT FACTOR RANKINGS. Pg. 117 (ABŞ)

2.Problem of Nagorny Karabakh and Azerbaijan Diaspora, «Перспективы науки», ISSN 2077-6810, №3(42), ТАМБОВ 2013, стр. 66-69 (Rusiya)

3.Роль и значение съезда азербайджанцев мира в диаспоральном строительстве, Научный и общественно – политический журнал «Этносициум» и межнациональная культура, ISSN 2072-3091, №4(58), МОСКВА 2013, стр. 176-180 (Rusiya)

4.География распространения печатных органов Азербайджанской диаспоры, отличающихся активной деятельностью в Европе, «ФІЛОЛОГІЧНІ НАУКИ», ISSN 2075-1486, №13, Полтава 2013, стр. 40-45 (Ukrayna)

**III. Beynəlxalq elmi konfransların materialları**

1. "Heydər Əliyev və Azərbaycan diasporu", Azərbaycanşünaslığın aktual problemləri, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfrans, II hissə, Bakı – Gəncə, 4-7 may 2011, s. 139-146

2. "Azərbaycan diasporunun formalaşmasında mühacirət və diaspor mətbu orqanlarımızın əhəmiyyəti", Azərbaycanşünaslığın aktual problemləri, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfrans, Bakı, 2-5 may 2012, s. 460-463

1."Diasporlararası beynəlxalq əlaqələrin qurulmasında KİV-in rolu və əhəmiyyəti", II Bakı Beynəlxalq Humanitar Forumu,4-5 oktyabr 2012

2."Роль печатных органов диаспоры в пропаганде истории и национально – духовных ценности Азербайджана", II International Scientific Conference "Language and Culture", Kutaisi – 2013, стр. 273-277 (Gürcüstan)

**Р. Р. Мамедов**

# СРЕДСТВА МАССОВОЙ ИНФОРМАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В ЕВРОПЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ И ВОПРОСЫ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ (ГЕРМАНИЯ, ФРАНЦИЯ, ТУРЦИЯ, АНГЛИЯ)

Азербайджанская диаспора, несмотря на существующие в наши дни трудности, стремится создать в странах зарубежья, в частности, в европейских государствах сообщества и общественные организации, добивается повышения тиража издаваемых газет и журналов. Результат налицо.

Такие издания как: “Yeni Qafqasiya”, “Azəri türk”, “Odlu Yurd”, “Bildiriş”, “Azərbaycan yurd bilgisi” (Стамбул), “İstiqlal”, “Qurtuluş” (Берлин), “Azərbaycan” (Анкара), “Türk izi”, “Türk yolu”, “Azərbaycan” (Мюнхен) и другие, в своё время стоявшие у истоков пропаганды наследия Азербайджана, неустанно пропагандировавшие национальную идеологию, осуществлявшие борьбу за независимость, сегодня заменены на медиа-ресурсы диаспоры: “Ana dili” (Бонн), “Odlar ölkəsi” (Эдинбург), “Dədə Qorqud” (Испания), “Qürbət” (Брюссель), “Aydınlıq” (Лондон), “Azərbaycan türkləri”, “Xəzər” (Стамбул), “Azərbaycan” (Стокгольм), “Azərbaycan” (Вашингтон), “Araz” (Лунд, Швеция), “Azər” (Берлин), “Savalan” (Берлин), “Ərk” (Германия), “Ziya” (Москва), “İnam” (Санкт-Петербург), “Savalan” (Днепропетровск, Украина), “Millət” (Симферополь, Украина), “Araz” (Кишинёв, Молдова) и другие. Естественно, несмотря на относительно явные отличия в подаче информации, много общих принципов между перечисленными СМИ, издаваемыми нашими соотечественниками, проживающими за границей, и диаспорой.

В докторской диссертации на тему «Средства массовой информации азербайджанской диаспоры в Европе в годы независимости и вопросы национальной идеологии (Германия, Франция, Турция, Англия)» исследуется идеологическая работа вышеперечисленных изданий, особенно тех, которых отличают в наши дни активность в социально-политической сфере, достигнутые успехи в расширении географии распространения и пропаганды национально-духовных ценностей.

Эта диссертация – первая монографическая исследовательская работа, расследующая в систематическом ракурсе деятельность медиа-ресурсов диаспоры и вопросы национальной идеологии.Впервые в научной работе в систематической форме изучены медиа-ресурсы диаспоры, издающиеся в Европе, дана обширная информация об истории их появления, стратегии деятельности, целях и задачах. Также в диссертации впервые проанализированы проблемы СМИ нашей диаспоры и указаны конкретные пути их решения. Помимо этого, впервые в этой научной работе медиа-ресурсы диаспоры проанализированы с идеологической точки зрения, разъяснена их роль в формировании и развитии медиа-ресурсов диаспоры, которые служат нашим соотечественникам, проживающим за рубежом. Наравне с вышеуказанным, также в систематической форме изучены радио и ТВ-ресурсы нашей диаспоры, география их распространения, технические и креативные возможности перечисленных информационных средств.

В результате проведённых исследований выявлено, что география распространения и темпы развития медиа-ресурсов азербайджанской диаспоры в Европе, отвечают современным требованиям, они успешно продолжают идеологическую работу и деятельность в социально-политической и культурной сферах. Успехи наших соотечественников с интеллектуальной и материальной точки зрения, а также занимаемых позиций в обществе, создают благоприятную почву для дальнейшего развития этой сферы.На данный момент в ряде развитых стран можно столкнуться с образцами наших СМИ. Эти медиа-ресурсы разнообразием тем, географией распространения и объективным освещением событий, происходящих в Северном и Южном Азербайджане, находятся в центре внимания не только наших соотечественников, но и иностранных граждан. Поэтому, максимально используя преимущества этих изданий, мы сможем в рамках единой идеологии нашей диаспоры и национальных ценностей, добиться эффективной деятельности, формирования мнения европейского сообщества об Азербайджане и азербайджанской идеологии, а также осуществления на высоком уровне пропагандистской работы, считающейся важнейшим аспектом в сфере организации и развития диаспоры.

**R.R.Mammadov**

# DIASPORA MEDIA OF AZERBAIJAN IN EUROPE AND PROBLEMS OF NATIONAL IDEOLOGY DURING INDEPENDENCE (GERMANY, FRANCE, TURKEY, UK)

Despite the existing difficulties, the Azerbaijani Diaspora trying to establish organizations and public unions abroad, especially in Europe, managed not only to publish newspapers and magazines, but also to increase their number. The result is obvious. Immigrant media outlets like "Yeni Qafqasiya", "Azəri türk", "Odlu Yurd", "Bildiriş", "Azərbaycan yurd bilgisi" (Istanbul), "İstiqlal", "Qurtuluş" (Berlin), "Azərbaycan" (Ankara), "Türk izi", "Türk yolu", "Azərbaycan" (Munich) and others, which once lay at the root of the migration heritage and worked tirelessly to promote the ideology of Azerbaijanism and restore the lost independence, are now replaced by Diaspora publications like "Ana dili" (Bonn), "Odlar ölkəsi" (Edinburgh), "Dədə Qorqud" (Spain), "Qürbət" (Brussels), "Aydınlıq" (London), "Azərbaycan türkləri", "Xəzər" (Istanbul), "Azərbaycan" (Stockholm), "Azərbaycan" (Washington), "Araz" (Lund, Sweden), "Azər" (Berlin), "Savalan" (Berlin), "Ərk" (Germany), "Ziya" (Moscow), "İnam" (Saint-Petersburg), "Savalan" (Dnepropetrovsk, Ukraine), "Millət" (Simferopol, Ukraine), "Araz" (Chisinau, Moldova) etc. For sure though the above- mentioned immigrant and Diaspora media outlets, which meet the requirements of global socio-political processes and changing times, differ substantially from one another both in terms of their action strategy, ability to give quick reaction to the ongoing processes and in terms of design, they share sufficient common principles.

Doctoral dissertation on the theme "Diaspora media of Azerbaijan in Europe and problems of national ideology during independence (Germany, France, Turkey, UK) highlights ideological activities, geographical coverage and achievements in the promotion of national-moral values of the above-mentioned publications, especially media outlets distinguished for active socio-political activities in modern times. This dissertation is the first monographic study analyzing systematically the activity of media outlets of Azerbaijani Diaspora in Europe and matters of national ideology. This scientific work has for the first time systematically studied most media outlets published in Europe and given broad information about the history,

action strategy, goals and duties of these publications. For the first time, this dissertation has analyzed problems causing concern of our Diaspora media outlets and shown concrete ways of solving these problems. Moreover, for the first time ever, this scientific work has analyzed media outlets of Diaspora from ideological point of view, explained the role of our immigrant and Diaspora media in the formation and development of national ideological values. Along with this, radio and TV channels of Azerbaijani Diaspora, their geographical coverage have been studied systematically, technical and creative opportunities of these media outlets have been researched. The studies have come to the conclusion that geographical coverage of Azerbaijani Diaspora media in Europe and pace of development meet the modern requirements and our media outlets continue successfully their activity in the socio-political and cultural spheres and ideological work. Achievements of our compatriots in terms of intellectual level, financial condition and positions in the society pave the way for the development of media outlets of our Diaspora media. At present one can meet our media outlets in a number of developed countries. These media outlets meet the interests not only of our compatriots, but also of the foreigners with different topics, geographical coverage and highlighting ongoing processes in the Northern and Southern Azerbaijan. So, using the power of these publications effectively, we will be able to achieve efficient activity of our Diaspora within the framework of unique ideology and national values, formation of views of the European society about Azerbaijan and Azerbaijanism, high-level promotion, which is considered one of the important factors in the activity of Diaspora.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**МАМЕДОВ РОВШАН РАГИФ оглу**

# СРЕДСТВА МАССОВОЙ ИНФОРМАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В ЕВРОПЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ И ВОПРОСЫ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ (ГЕРМАНИЯ, ФРАНЦИЯ, ТУРЦИЯ, АНГЛИЯ)

**5720.01- Журналистика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора наук по филологии**

**Баку - 2016**